# DAYANIQLI İNKİŞAF HESABATI 2021

bakcell

# Mündəricat


03 Baş İcraçı Direktorun müraciəti

05 Biz Bakcell-ik

11 Biz hər bir şəxs üçün ortaq dəyərlər yaradırıq

21 Biz rəqəmsal və inklüziv dünya qururuq

37 Biz planetimizin gələcəyinin qayğısına qalırıq

42 Əlavə

46 GRİ İndeksi

53 SASB indeksi Fəaliyyət göstəriciləri üzrə cədvəllər

# Akronimlərin siyahısı

| | |
|---|---|
| **ABMS** | Rüşvətxorluğa qarşı İdarəetmə Sistemi |
| **B2B** | Korporativ satış |
| **B2C** | Pərakəndə satış |
| **BCM** | Biznesin fasiləsizliyinin idarə edilməsi |
| **BMT** | Birləşmiş Millətlər Təşkilatı |
| **BTS** | Baza Transiver stansiyası |
| **CEO** | Baş İcraçı Direktor |
| **CO2** | Karbon Dioksid |
| **DİM** | Dayanıqlı İnkişaf Məqsədləri |
| **ESG** | Ətraf Mühit, Sosial və İdarəetmə |
| **GeSI** | Qlobal E-Dayanıqlı İnkişaf Təşəbbüsü |
| **GRI** | Qlobal Hesabatlılıq Təşəbbüsü |
| **GSMA** | Mobil Rabitə üçün Qlobal Sistem Assosiasiyası |
| **İEYQ** | İstixana Effekti Yaradan Qazların emissiyaları |
| **İR** | İnsan Resursları |
| **SƏTƏMM** | Sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühitin mühafizəsi |
| **İKT** | İnformasiya və Kommunikasiya Texnologiyaları |
| **IIS** | Daxili və İnformasiya Təhlükəsizliyi |
| **ISO** | Beynəlxalq Standartlaşdırma Təşkilatı |
| **ITU** | Beynəlxalq Rabitə Birliyi |
| **KSM** | Korporativ sosial məsuliyyət |
| **LED** | İşıq diodu |
| **LTE** | Uzunmüddətli inkişaf |
| **M2M** | Avadanlıqlar arası |
| **MSSP** | İnformasiya təhlükəsizliyinin idarə edilməsi |
| **PR** | İctimaiyyətlə əlaqələr |
| **SASB** | Dayanıqlı İnkişaf üzrə Mühasibat Uçotu Standartları Şurası |
| **SIM** | Abunəçinin Eyniləşdirmə Modulu |
| **SMM** | Sosial Media marketinqi |
| **SMS** | Qısa mesaj xidməti |
| **TCFO** | Trans Xəzər Fiber Optik kabel xətti |
| **ÜDM** | Ümumdaxili məhsul |
| **VoLTE** | LTE üzərindən səs |

# Baş İcraçı Direktorun müraciəti



2021-ci ildə biz, fəaliyyətimizin bərpasına və təkmilləşdirilməsinə, insanların sağlam qalması və məhsuldar şəkildə çalışmasına dəstək olmağa, pandemiyadan sonra normal fəaliyyətə geri qayıtmasına və həyatlarını davam etdirməsinə fokuslanaraq resurslarımızı bu istiqamətdə istifadə etdik.

**Qarşılıqlı əlaqəli və məsuliyyətli rəqəmsal dünyanın yaradılması**

Rabitə xidmətlərinin etibarlı və aparıcı təchizatçısı kimi, Bakcell hər kəsə qarşılıqlı əlaqəli və məsul rəqəmsal dünyaya çıxış verir. Bizi hərəkətləndirən və cəmiyyətimizi bir araya gətirən məqsəd məhz budur. Məqsədimizi fəaliyyətimizin bütün funksiyalarına və səviyyələrinə inteqrasiya etməklə, biz kimliyimizin əsas elementini müəyyən edir və müştərilərimiz və bütün maraqlı tərəflərimizlə dəyərli əlaqələr qururuq.

Ötən illərdə və 2021-ci il ərzində həyata keçirdiyimiz əsas siyasət şəbəkələrdəki aparıcı mövqeyimizdən istifadə edərək biznes modelimizi yenidən kəşf etməkdir. Biz bilirik ki, telekommunikasiya sənayesi mühüm mərhələdədir. Sənaye sahəsinə nüfuz etməkdə davam edən KİV təminatçılarının gərgin rəqabəti ilə üzləşərək və unikal məhsul təkliflərimizin daha az əhəmiyyətə malik olduğunu anlayaraq, biz, gələcəyin şəbəkələrinə böyük sərmayə qoyuruq. Bu səbəbdən də, biz, regionda aparıcı inteqrasiya olunmuş telekommunikasiya xidmətləri təminatçısı olmaq məqsədilə müştərilərimizə təkmilləşdirilmiş "fiber genişzolaqlı ötürücü və mobil bağlantı" təklif etmək üçün yeni üsullar müəyyənləşdiririk.

COVID-19-un yayılması istehlakçı tendensiyalarını və xüsusilə işin xarakterini dəyişdi. İnsanlar fiziki iştiraka ehtiyacın olmadığı hibrid iş rejiminə keçdilər. Pandemiyanın yaratdığı şərait və hibrid iş modeli dünyanın rəqəmsallaşması üçün bir vasitə, katalizator rolunu oynadı. Rəqəmsallaşma dünyanın ən populyar tendensiyası oldu və bütün təşkilatların diqqət mərkəzindədir. Pandemiya rəqəmsal inkişafımızı əhəmiyyətli dərəcədə sürətləndirdi - növbəti on ildə baş verməsi gözlənilən bəzi rəqəmsallaşma prosesləri 2 ildə həyata keçdi. Rəqəmsallaşmanı dəstəkləyən bir şirkət olmaq missiyamıza sadiq qalaraq, biz əməliyyatlarımızı və proseslərimizi daxildə əhəmiyyətli dərəcədə rəqəmsallaşdırdıq. Biz istifadəçilərimiz arasında məşhur olan "Mənim Bakcell"im mobil tətbiqini yenilədik. Son 12 ayda biz daxili prosedurlarımız üçün 12 yeni Oracle funksiyasını tətbiq etdik.

Bu rəqəmsallaşma tendensiyası tezliklə fiziki SİM kartların əhəmiyyətini və istifadəsini azaldacaq. Onlara ehtiyacın olmaması telekommunikasiya sənayesinin təklif etdiyi rəqəmsal xidmətlərdə gözlənilən inkişafdan irəli gəlir. Müştərilərə təklif olunan xidmətlərin dəyişdirilməsi və asanlaşdırılması onlara bu xidmətlərdən rahatlıqla istifadə etmək imkanı verəcək. Yerli rabitə məkanının tamamilə rəqəmsallaşdırılması rəqəmsal inqilabın önündə olmaq üçün müəyyən etdiyimiz iddialı bir istəyimizdir.

**Müştəri təcrübəsinin və məmnunluğunun prioritetləşdirilməsi**

Bakcell-də müştərilərimizin rahatlığı və məmnunluğu bizim üçün hər şeydən önəmlidir və biz buna hər zaman üstünlük veririk. Bütün strateji fəaliyyətlərimizin və planlarımızın əsasını istehlakçı tendensiyaları və davranışları təşkil edir. Müştərilərimizin rəylərini və problemlərini dinləmək öhdəliyimiz məhsul və xidmət təkliflərimizi təkmilləşdirmək üçün bizə lazım olan bütün sualları cavablandırır.

İstehlakçı tendensiyaları qlobal miqyasda dəyişir – müştərilərimiz texnologiya ilə daha çox maraqlanır və onların rabitə təminatçıları ilə bağlı gözləntiləri də artır. Bu, telekommunikasiya sənayesini "səhvsiz" sənayeyə çevirir. Kiçik bir uğursuzluq müştərilərimizin nəzərinə çarpacaq və mütləq onların təcrübəsinə və nəticədə loyallığına təsir göstərəcək. Buna görə də, məhsul və xidmətlərimizin keyfiyyət standartlarını ən yüksək səviyyədə saxlamağa və işlərimizi səhvsiz idarə etməyə çalışırıq.

# Dayanıqlı inkişafa diqqətin artırılması

Qlobal arenada dayanıqlı inkişafın əhəmiyyətinin artması mübahisə olunmazdır, bu səbəbdən də biz, həm Bakcell-in dayanıqlı inkişafına dəstək olmalı, həm də icmalarımıza müsbət təsirimizi artırmalıyıq. 2021-ci ildə biz iqtisadi, sosial və ətraf mühitə təsirlərimizi nəzərdən keçirərək dayanıqlı inkişafın hər 3 istiqaməti üzrə irəliləyişə nail olduq. Dayanıqlı inkişaf üzrə öhdəliyimiz ilk Dayanıqlı İnkişaf Siyasətimizdə və daha sonra onun Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM-lər) uyğun olaraq tətbiqində əks olunur. Son 3 il ərzində müsbət maliyyə nəticələri əldə etdiyimiz üçün diqqətimizi sosial və ekoloji amillərə də yönəltdik. Biz daxildə əməkdaşlarımızın rifahı və Bakcell-in daha kamil bir şirkət kimi inkişafı ilə əlaqədar bir sıra siyasətlər hazırladıq.

Davranış Məcəlləsi, Müxtəliflik və İnklüzivlik Siyasətimiz, eləcə də Korrupsiya ilə Mübarizə Siyasətimiz dəyərlərə əsaslanan mədəniyyət və etik normalar baxımından Bakcell üçün yeni imkanlar açdı. Biz, regionda yüksək vəzifəli qadın əməkdaşlarının sayına görə mühüm paya malik olan şirkətlərdən biri olmağımızla fəxr edirik. Biz cəmiyyət yönümlü geniş KSM layihələrimizi həyata keçirməkdə davam edirik və 2 il ardıcıl olaraq “Milli KSM Mükafatları”nı qazanaraq təkcə Şirkətimizin deyil, həm də xidmət göstərdiyimiz cəmiyyətin inkişafına sadiqliyimizi nümayiş etdirdik.

Başa düşürük ki, ətraf mühitə əsas təsirimiz enerji istehlakımız ilə bağlıdır, çünki biz yüksək enerji istehlakı olan sənaye sahəsində çalışırıq. Bu ildən etibarən biz, enerjiyə qənaət mexanizmlərini araşdırmağa başlamışıq. Hazırda biz günəş enerjisi və enerjiyə qənaət mexanizmlərindən istifadəni qiymətləndiririk və yüksək enerji istehlakına mənfi təsirimizi alternativ üsullarla azaltmağa çalışırıq.

## İrəliyə baxış

Qarşımızda böyük transformasiya və dəyişiklik dövrü vardır və biz müştərilərimiz və icmalarımız arasında əlaqəni hər zamankı kimi saxlayaraq hədəf və strategiyamıza nail olmaq üçün dayanmadan çalışacağıq. 2021-ci ildə biz müştərilərimizin təcrübəsini əhəmiyyətli dərəcədə təkmilləşdirəcək və yerli rabitə sahəsinə çoxdan gözlənilən dəyişikliyi gətirəcək tamamilə yeni voLTE (LTE üzərindən səs) şəbəkə bağlantısının işə salınması üçün hazırlıqlara başladıq. Önümüzdəki illərdə rəqəmsallaşmaya mühüm diqqətimiz davam edəcək, belə ki, texnoloji imkanlarımız insanlar və icmalar arasında rabitə yaratmaq öhdəliyimiz sayəsində artır.

**Rainer Rathgeber**

**Bakcell şirkətinin Baş İcraçı Direktoru**

# BİZ BAKCELL-İK

Bakcell rəqəmlərlə
Dəyərlər və prinsiplər
Dayanıqlı yanaşma və gündəlik
BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə töhfəmiz (DİM)

# Bakcell rəqəmlərlə

| | | | |
|---|---|---|---|
| **545** Qadın əməkdaş | **99.9%** Əhatə olunan əhali | **2,8MLN** aktiv müştəri | **7MLN** AZN cəmiyyətin rifahı üçün sərmayələr |
| **1575** əməkdaş | **92.6%** Ərazi əhatəsi | **8MİN** BTS | **2,8MİN** LTE stansiyası |

## Dəyərlər və prinsiplər

Telekommunikasiya şirkəti olaraq biz insanların ünsiyyətindəki mühüm rolumuzu və üzərimizə düşən məsuliyyəti dərk edirik, belə ki, hər gün milyonlarla insan bizim xidmətlərimiz və məhsullarımız vasitəsilə bir-birilə əlaqə saxlayır. Dəyərlərimizə və prinsiplərimizə sadiq qalaraq və bizə açıq olan resurslardan istifadə edərək, biz hədsiz rabitə imkanları olan dünya qurmağa çalışıq. Hədəfimizin iddialı olduğunu etiraf edərək, düzgün yanaşma ilə bu işdə uğur qazana biləcəyimizə inanırıq.

Fikrimizcə, uğurlu biznes güclü dəyərlərin təməli üzərində qurulur. Bakcell-də biz fəxrlə deyə bilərik ki, Şirkətimiz şəffaflıq, dürüstlük və hesabatlılıq mədəniyyətini təşviq etmək istəyimizi tam olaraq əks etdirən dəyərlər toplusu yaratmışdır. Bizim dəyərlərimiz həqiqi fəaliyyətin həqiqi dəyişiklik gətirəcəyinə dair əsas inancımıza istinad edir. Bu inancımıza sadiq qalarkən biz əsl sənaye liderinin necə fəaliyyət göstərməli olduğuna dair prinsiplərimizi rəhbər tuturuq.

Ötən illərdə dəyərlərimiz yüksələrək şirkətimizin əsas tutduğu hədəflərə tam şəkildə uyğun olmuşdur. Bu məqsədlə biz, korporativ fəlsəfəmizi və baxışlarımızı öhdəliklərimizə uyğunlaşdırmaq üçün daim nəzərdən keçirir və yenidən qiymətləndiririk.

## Cədvəl 1. Bakcell-in missiyası və məramı

| Missiya | Məram |
|---|---|
| Bazarda texnologiyalar üzrə liderliyi qoruyub saxlamaqla müxtəlif tərkibli müştəri bazasına dayanıqlı və müştəri-yönümlü yanaşma vasitəsilə real dəyər təqdim etmək. | Ölkədə rabitə əlaqələrini və rəqəmsallaşdırmanı stimullaşdırmaqla telekommunikasiya və innovasiyalar üzrə lider olmaq. |

## Cədvəl 2. Bakcell-in dəyərləri və rəhbər tutduğu prinsiplər

| DƏYƏRİMİZ | MÖVQEYİMİZ | RƏHBƏR TUTDUĞUMUZ PRİNSİPLƏR |
|---|---|---|
| **Dürüst olmaq** | Bakcell-də biz inanırıq ki, dürüst olmaq uğurlu olmaq deməkdir. Əməkdaşlarımızın hər birinin işimizə fərdi töhfəsi və baxışları sayəsində biz, maraqlı tərəflərimizə müstəsna xidmətlər təqdim edə bilirik. | Özümüz qarşısında dürüstük. ✓<br>Bütün şəxslərə hörmət bəsləyirik. ✓<br>Ətrafımızdakıların səlahiyyətlərini artırırıq. ✓ |
| **İnnovasiyalarda lider olmaq** | Biz davamlı araşdırma və təkmilləşdirmələr aparmaqla və ən son texnoloji nailiyyətləri tətbiq etməklə müştərilərimizə yüksək keyfiyyətli müasir telekommunikasiya xidmətləri təqdim edərək bazarda mövqeyimizi innovativ lider kimi qoruyub saxlamağa çalışırıq. | Uğurlarımızın bünövrəsində həyata keçirdiyimiz yeniliklər dayanır. ✓<br>Biz məsuliyyətlə fəaliyyət göstəririk. ✓<br>Biz imkanların sərhədlərini aşırıq. ✓ |
| **Dəyər təklif etmək** | Kəmiyyətdən keyfiyyətə keçid etməklə biz, təklif etdiyimiz xidmətlər və məhsullarla bağlı müştərilərimizin ən yaxşı dəyərlərə çıxışını təmin etmək istəyirik. | Biz bazarda birinci olmağa səy göstəririk. ✓<br>Biz müştərilərimizi ən üst pillədə tuturuq. ✓<br>Biz ünsiyyətə açığıq. ✓ |
| **Rəqəmsallaşdırmanı sürətləndirmək** | Yerli cəmiyyətdə hər zaman rəqəmsal transformasiyalara səy göstərməyimiz və dəstək olduğumuz halda, COVİD-19 pandemiyasının artması bu prosesi heç kimin təsəvvür etmədiyi dərəcədə sürətləndirdi. Şirkətimizin texnologiya sahəsində lider mövqeyi bizə hər yerdə rəqəmsal transformasiya vasitəsilə rabitəli dünya qurmaq və dünyada daim inkişaf etməkdə olan tendensiyalarla ayaqlaşmaq ambisiyamıza sadiq qalmaq imkanı verir. | Biz çevikliyi saxlayır və yaranan bütün məsələlərə unikal həllər tapırıq. ✓<br>Biz qlobal tendensiyaları nəzərimizdə saxlayırıq. ✓<br>Biz ambisiyaları dəstəkləyirik. ✓ |
| **Səxavətli qalmaq** | Biz ən yüksək şəffaflıq, hesabatlılıq və dürüstlük standartlarına riayət etməsəydik, səylərimiz nəticəsiz olardı. Bu dəyərlərimizi hər şeydən üstün tutmaqla ölkədə dəyişikliklərin aparıcısı olmaq vəzifəmizə uyğun hərəkət edirik. | Biz ehtiyacı olanların səsiyik. ✓<br>Biz hər zaman düzgün hərəkət edirik. ✓<br>Biz üzərimizə məsuliyyət götürürük. ✓ |

# Dayanıqlı yanaşma və gündəlik

Şirkət olaraq Bakcell dayanıqlı inkişafın dünyada və hər bir şəxs üçün daha yaxşı gələcəyin qurulmasında müstəsna rola malik olduğunu təsdiq edir. Dayanıqlı inkişaf üzrə kompleks yanaşmaya səy göstərərək biz, təkmilləşdirilməli sahələri və məqsədlərimizə nail olmaq metodlarını müəyyən etmək üçün yanaşmamızı mütəmadi olaraq yenidən qiymətləndiririk. Etiraf edirik ki, bu hədəfə çatmaq üçün biz daha qətiyyətli addımlar atmalı olacağıq.

Bu məqsədlə biz 2020-ci ildə Dayanıqlı İnkişaf Siyasətini hazırladıq. Hesab edirik ki, bu, dayanıqlı inkişaf sahəsində məqsədlərimizə nail olmaq üçün ən mühüm addımdır. Bu siyasətlə biz, şirkətimizdə dayanıqlı inkişaf haqqında məlumatlılığı artırmağa və cəmiyyətdə dəyişikliklərin carçısı olmağa çalışırıq. Dayanıqlı inkişaf siyasətimiz fəaliyyətimizi həyata keçirərkən BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərini (DİM-lər) əsas tutur və bütün şöbələrimizin buna sadiq qalmasını tövsiyə edir. Bu siyasət bütün layihələrimiz, proqramlarımız və xidmətlərimiz üçün gələcək planları əks etdirir.

Dayanıqlı inkişaf siyasətimizə əlavə olaraq, biz həmişə Dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün öz töhfəmizi verməyə çalışırıq. Biz dünyanı təklikdə dəyişdirə bilməyəcəyimizi və bunun üçün hər birimizin çalışmalı olduğunu başa düşərək hər bir dəstəyin həqiqətən də əhəmiyyətli müsbət bir təsir yaradacağına inanırıq.

Biz başa düşürük ki, dayanıqlı inkişaf sadəcə layihə deyil, daha çox biznesin aparılması üsuludur. Bu səbəbdən, Dayanıqlı inkişafı biznesimizin təməlinə inteqrasiya etmək üçün dürüstlük, şəffaflıq, hesabatlılıq mühitini qoruyan bir sıra meyarlar müəyyən etmişik. İdarəetmə strukturumuz çoxsəviyyəli nəzarət və tarazlıq sisteminin yaradılmasına xidmət etməklə çoxsaylı hesabatlılıq səviyyəsini təqdim edir. Təşkilati strukturumuz haqqında daha ətraflı məlumatı "Biznes davranış etikası" bölməsindən əldə edə bilərsiniz səhifə 12.

Bakcell-də biz həqiqətən dayanıqlı dünyanın məhz rabitəli dünya olması fikrinə inanırıq. İnnovasiya və texnologiya üzrə aparıcı mövqeyimiz rabitənin təmin edilməsi istiqamətində bizim üstünlüyümüzdür. Biz hər bir şəxsə cəmiyyətdə və iqtisadiyyatda fəal iştirak etmək imkanı verməyə çalışaraq, nəticə etibarilə rəqəmsal inklüzivlik dünyası yaradırıq. Dayanıqlı inkişaf üzrə töhfəmiz insanlara səmərəli işləmək və biznesi idarə etmək, öyrənmək və təhsil almaq, vacib olan məsələlər haqqında məlumatlılığı artırmaq və cəmiyyətdə iştirak etmək bacarıqlarının aşılanmasından bəhrələnir. Biz texnologiya sahəsində liderliyimizi mənfəətdən yüksək həqiqi dəyər yaratmaq üçün istifadə edirik. Dəyər zəncirimiz bizim mövqeyimizi, habelə dayanıqlı inkişaf üzrə liderliyimiz və ətraf mühitə minimum təsirlə ədalətli cəmiyyət qurmaq istəklərimizi əks etdirir.

## Şəkil 1. Bakcell-in dəyər zənciri



Fəaliyyətimiz üzrə texnoloji liderlik və dayanıqlılıq öhdəliyimizə sadiq qaldığımızı təsdiq etmək üçün müəyyən etdiyimiz prioritetlərə dayanan geniş tədbirlər həyata keçiririk. Prioritetlərin dəqiq müəyyən edilməsi sistemi sayəsində biz son hədəfimizi diqqətdə saxlayaraq dayanıqlı inkişafa sistemli yanaşmanı tətbiq edə bilərik.

## Şəkil 2. Bakcell-in dayanıqlı inkişaf prioritetlərinin 3 sütunu




Bilirik ki, xarici maraqlı tərəflər üçün dəyişikliklər yaratmaq məqsədilə, biz ilk növbədə Şirkətimizin daxilində dayanıqlı inkişaf prinsiplərinə yer verməliyik. Daxili maraqlı tərəflərin rifahına prioritet verməklə biz hər bir şəxsin inkişaf edə biləcəyi, irəliləyəcəyi və çiçəklənəcəyi bir mühit yaradırıq. Belə ki, COVID-19-un baş verməsi ilə bağlı şərait çətin olsa da, biz bunu şirkətimizin siyasətlərini daha çevik yanaşmaya uyğunlaşdırmaq üçün nəzərdən keçirərək dayanıqlı inkişaf üzrə dəyişikliklərə yol açan fürsət kimi dəyərləndirməyə çalışdıq. Biznes davranışımızı tamamilə dəyişdirərək, FLEXcellence təşəbbüsü əməkdaşlarımıza sərbəst işləmə imkanı təqdim edərək öz rifahlarının prioritetləşdirilməsinə, iş və yaşam balansının saxlanmasına imkan yaradır ki, bu da işçilərimizin bacarıqları sayəsində hədəflərimizə nail olmağa dəstək olur.

## Şəkil 3. FLEXcellence proqramının dayanıqlı inkişaf ilə bağlı faydaları




Texnologiyalara olan etibardan qaynaqlanan rəqəmsallaşdırma və texnoloji liderliyə verdiyimiz önəm istehlakçıların müxtəlif növ xidmətlərə asan çıxışını təmin edir. Dayanıqlı inkişafı dəstəkləyən tərəflərdən olaraq biz, rəqəmsallaşdırmanı daha inklüziv cəmiyyətin təşkili aləti kimi istifadə etməklə ölkədə dayanıqlı inkişafı sürətləndirmək arzusundayıq.

# BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə töhfəmiz (DİM)

Bakcell olaraq biz icmalarımızda nəzərəçarpacaq dəyişikliklərə nail olmaq üçün əməkdaşlarımız arasında dayanıqlı inkişaf mədəniyyətini fəal şəkildə təşviq edirik. Dayanıqlı İnkişaf Siyasətimizi tətbiq etməklə biz əməliyyatlarımızda Davamlı İnkişaf Məqsədlərinin (DİM) yerinə yetirilməsini təmin edirik. Şirkətimizin mədəniyyətinin təməlində duran prinsiplər DİM-lərə dəstək olmaq və nəticədə fəaliyyət göstərdiyimiz ölkə və cəmiyyət üçün həqiqi dəyər yaratmaq hədəfinə doğru irəliləməkdə bizə yardımçı olur. 2030 Gündəliyinə uyğun olaraq daha çox layihə və təşəbbüslər həyata keçirməklə, DİM-ə töhfə portfelimiz hər il böyüməkdə davam edir.

## Cədvəl 3. Bakcell-in DİM-lərə töhfəsi

| DİM | Bizim töhfəmiz | Bizim fəaliyyətimiz |
|---|---|---|
| 3 YAXŞI SƏHİYYƏ VƏ RİFAH | Zənnimizcə, işçilərimizin sağlamlığı və rifahı onların yaxşı fəaliyyəti və işləməsi üçün əsas şərtdir. COVID-19-un yayılması bizi bu DİM-lərə diqqətimizi artırmağa sövq etdi. | **•"FLEXcellence" proqramı<br>•İşçilər üçün SƏTƏMM tələbləri<br>•Müvafiq KSM tədbirləri** |
| 9 SƏNAYE, İNNOVASİYA VƏ İNFRASTRUKTUR | Ölkə daxilində rabitənin Bakcell tərəfindən təmin edilməsi bizə innovasiya və infrastrukturda lider olmaq kimi unikal imkan verir. | **•Yeni VoLTE şəbəkəsinin tətbiqi<br>•LTE-Müasir texnologiyasından istifadə (4.5G)<br>•Transxəzər fiber optik kabel xətti (TCFO)** |
| 5 GENDER BƏRABƏRLİYİ | Biz heç bir cinsə qarşı ayrı-seçkilik etmirik və həm kişilərə, həm də qadınlara eyni iş imkanlarını tanıyırıq. Biz qadınların səlahiyyətlərinin artırılması və onların Şirkətdə aparıcı vəzifələrdə çalışmasının təmin edilməsi üzərində çox işləyirik. | **•Qadınların səlahiyyətlərinin artırılması ilə bağlı KSM tədbirləri** |
| 4 KEYFİYYƏTLİ TƏHSİL | Uğurumuzun kökündə bilik və bacarıqlarımızın dayandığını nəzərə alaraq, biz təlim və inkişaf təşəbbüslərinə çox ciddi yanaşırıq. Biz işçilərimizə qabaqcıl təhsil imkanlarının təqdim olunmasına böyük diqqət veririk. Bundan əlavə, biz cəmiyyətimizə məqbul töhfə vermək və digər halda belə təhsil almaq imkanı olmayanlara keyfiyyətli təhsil üçün eyni imkanlar təmin etmək istəyirik. | **•"İşçilərlə qarşılıqlı əlaqələrin qurulmasını mənimsəmək üçün üç ay" təlim proqramı<br>•Gənc kadrlarla iş<br>•"Virtual təhsilin dəstəklənməsi" proqramı<br>•Qiyabi (məsafədən) təhsil paketləri** |
| 11 DAYANIQLI ŞƏHƏRLƏR VƏ İCMALAR | Ölkənin ən böyük telekommunikasiya provayderlərindən biri olan Bakcell öz geniş mobil qüllələr şəbəkəsi, BTS, LTE stansiyaları və digər müvafiq infrastrukturları vasitəsilə dayanıqlı və rabitəli şəhərlərin və icmaların inkişafına dəstək olur. | **•Rəqəmsal infrastruktur şəbəkəsi** |
| 15 TORPAQ EKOSİSTEMİNİN MÜHAFİZƏSİ | Təsdiq edirik ki, əməliyyatlarımızın xüsusiyyətinə görə fəaliyyətimiz istər yer üzərində, istər sualtı yerli ekosistemlərə əhəmiyyətli təsir göstərmir. Bununla belə, biz yaşadığımız mühitə və dünyaya qayğı göstərir və çoxsaylı KSM fəaliyyətlərimiz və ətraf mühitlə bağlı təşəbbüslərimiz sayəsində mühüm dəyişikliklər yaratmağa çalışırıq. | **•Sahillərin təmizlənməsi layihələri<br>•Bərpa olunan enerji<br>•Dizel üçün daha təmiz alternativ** |

# BİZ HƏR KƏS ÜÇÜN ORTAQ DƏYƏRLƏR YARADIRIQ

Biznesin etik prinsiplərə uyğun idarə edilməsi

Biznesin davamlılığı və COVİD-19 təsiri

Məsuliyyətli təchizat zəncirinin idarə edilməsi

# Biznesin etik prinsiplərə uyğun idarə edilməsi

## Rəhbərlik və idarəetmə

Bir şirkətin düzgün işləməsi və davamlı şəkildə inkişaf etməsi üçün sabit və funksional korporativ idarəetmə modelinin olması çox vacibdir. Şirkətimizin idarə edilməsi üzrə ən yaxşı şəraiti təmin etmək məqsədilə biz hər zaman idarəetmə strukturumuzu inkişaf etdirir və təkmilləşdiririk. Şirkətimizin güclü idarəçiliyi strategiyamızın, məqsədimizin və missiyamızın həm müştərilərimiz, həm də əməkdaşlarımız üçün ən uyğun şəkildə həyata keçirilməsini dəstəkləyir.



Rainer Rathgeber Bakcell şirkətinin baş icraçı direktorudur. Xorvatiya və Pakistan da daxil olmaqla, bir sıra ölkələrdə idarəetmə konsaltinqi və telekommunikasiya sənayesi üzrə aparıcı şirkətlərdə geniş təcrübəyə malik olan Rainer, 2019-cu ildə Bakcell-də vəzifəsini icra etməyə başlayıb.

### Rainer Rathgeber

Lothar Heinrich Andreas Pauly Direktorlar Şurasının sədridir. Telekommunikasiya və texnologiya sənayesində 30 ildən artıq təcrübəyə malik olan Lothar, hazırda müxtəlif telekommunikasiya şirkətlərinin idarə heyətində yer alır.

### Lothar Heinrich Andreas Pauly





Bakcell NEQSOL Holding beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir. Yusif Cabbarov NEQSOL Holding-in Baş İcraçı Direktoru və Bakcell-in Direktorlar Şurasının sədr müavinidir. O, Vodafone Ukraynanın Direktorlar Şurasının sədri olmaqla yanaşı, Nobel Upstream, Nobel Energy və Norm daxil olmaqla bir çox digər şirkətlərdə İdarə Heyətinin üzvü kimi fəaliyyət göstərir.

### Yusif Cabbarov



Riçard Şearer 2011-2016-cı illərdə Bakcell şirkətinin baş direktoru vəzifəsində çalışmış və hal-hazırda Direktorlar Şurasının üzvüdür. O, əvvəllər digər telekommunikasiya şirkətlərində, o cümlədən Cable & Wireless və DiGiTelecom-da İdarə Heyətinin üzvü və baş direktor vəzifələrində çalışıb.

## Riçard Şearer



İlter Terzioğlu Bakcell-də İdarə Heyətinin üzvüdür, Turkcell-də 20 ilə yaxın işləmişdir, Strategiya və Maliyyə üzrə İcraçı Vitse-Prezident, Beynəlxalq Biznes Rəhbəri, Baş Strateji Layihələr Direktoru və Baş Əməliyyatlar Direktoru kimi müxtəlif vəzifələrdə çalışmışdır.

## İlter Terzioğlu



Cenk Serdar telekommunikasiya sənayesində geniş təcrübəyə malikdir və Bakcell-in İdarə Heyətinin üzvüdür. O, həmçinin Saudi Telecom Group, Vodafone Group və Turkcell Group kimi şirkətlərdə rəhbər və rəhbər vəzifələrdə çalışmışdır.

## Cenk Serdar

**Cədvəl 4. İllik ümumi kompensasiya nisbəti, 2019-2021**

| | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| Bakcell-in ən yüksək maaş alan əməkdaşı üçün illik ümumi kompensasiyanın bütün əməkdaşlar üçün orta illik ümumi kompensasiyaya nisbəti | 44.74 | 44.74 | 46.26 |

Şirkətin fəaliyyətinin idarə edilməsi və ümumi idarəetməyə üç əsas orqan cavabdehdir: Səhmdarların Ümumi Yığıncağı, Direktorlar Şurası və Qrupun Komitələri. Bu idarəetmə orqanlarının vəzifələri ilə bağlı təfərrüatlar üçün 2020-ci il üzrə İllik Dayanıqlı İnkişaf Hesabatımıza baxın.

**Şəkil 4. Bakcell-in təşkilati strukturu [1]**




İdarəetmə strukturumuzun qərəzsizlik, nəzarət və tarazlıq sisteminə əsaslanmasını təmin etmək üçün müxtəlif məsələlərin həllində bizə yardımçı olan 6 müxtəlif komitəmiz vardır.

[1] Göy rənglə qeyd olunmuş funksiyalar Bakcell üçün müstəqil xidmət göstəricisi tərəfindən həyata keçirilir.

Şəkil 5. Bakcell-in Komitələri

## Mükafatlandırma komitəsi

- Mükafatlandırma siyasətlərinin və planlarının tərtib olunması
- Əməkdaşların cəlb olunması və saxlanması üzrə məsləhətlərin hazırlanması

## Audit komitəsi

- Şirkət üzrə dələduzluq hallarının olmaması, etik və uyğunluq prinsiplərinin qorunması
- Daxili nəzarət sisteminin yoxlanılması
- Audit hesabatlarının hazırlanması və daxili audit funksiyasına nəzarət olunması

## Texnologiya komitəsi

- Şirkətin texnoloji strategiyasının tərtib olunması
- Texnologiya üçün büdcənin təsdiqlənməsi və nəzarətdə saxlanılması
- Texnoloji fəaliyyətin nəzarətdə saxlanılması
- Yeni texnoloji imkanların araşdırılması və tətbiq olunması

## İcraiyyə komitəsi

- Əməkdaşlar tərəfindən törədilən uyğunsuzluq və qeyri-etik davranışların araşdırılması
- Araşdırılan hadisələr üzrə qərarın verilməsi və müvafiq tədbirlərin həyata keçirilməsi

## İnvestisiya komitəsi

- İnvestisiya hədəfləri və müvafiq investisiya siyasətlərinin hazırlanması
- İllik investisiya planlarının və büdcələrinin hazırlanması
- Baş Maliyyə Direktorunun və müvafiq biznes funksiyaların fəaliyyətinə nəzarət olunması

## Etika və Komplayens komitəsi

- Əməkdaşların Davranış Kodeksi ilə uyğun fəaliyyət göstərməsinə nəzarət olunması
- Daxili proseslərin Davranış Kodeksi ilə uyğun olmasına nəzarət olunması
- Davranış Kodeksi ilə uyğunsuzluq hallarının araşdırılması

Bizim ən böyük təşkilati üstünlüklərimizdən biri ədalətlilik mədəniyyəti və bərabər imkanlar prinsipi ilə istedadlı kadrları cəlb etmək və saxlamaqdır. Ona görə də biz əmək haqqı və kompensasiya məsələsinə ciddi yanaşırıq. Biz işçilərin saxlanmasında həvəsləndirmə amilinin mühüm əhəmiyyət kəsb etdiyini başa düşürük və əməkdaşlarımızın öz gərgin əməyinin və işinin ədalətli maddi qarşılığını almasını istəyirik. Əmək haqqı Siyasətimizdə bütün işçilərin zəhmətinin əvəzini verən balanslaşdırılmış və bacarıqlara əsaslanan mükafatlandırma proseduru əks olunur.

Biz Şirkətimizdə müxtəlifliyi və inklüzivliyi təşviq etməyə çalışarkən, dəyişikliyin yuxarıdan başlamalı olduğunu anlayırıq; buna görə də biz Bakcell-in ali idarəetmə qurumlarında qadınların təmsil olunmasını təşviq edirik. Biz qadınların rəhbər vəzifələrdə iştirakını təşviq etmək üçün bir sıra layihələrin, o cümlədən, 2022-ci ildə başlanacaq “Biz edəcəyik” adlı genişmiqyaslı gender bərabərliyi layihəsinin həyata keçirilməsinə başlamışıq.



**70**
İcraedici vəzifələrdə qadın əməkdaş



**189**
İcraedici vəzifələrdə kişi əməkdaş

## Biznes davranışımız

Ədalətlilik, obyektivlik və hörmət Bakcell-in əsas prinsiplərindəndir. Bir Şirkət olaraq biz bu prinsipləri biznes davranışımızın bütün aspektlərinə inteqrasiya etməyə çalışırıq və hər zaman və bütün hallarda etik şəkildə hərəkət etməyə çalışırıq. Etika standartlarına bu cür əməletmə korporativ mədəniyyətimizin əsasını təşkil edir. İdarə Heyətimiz təsdiq edir ki, Bakcell-in uzunmüddətli uğurunun kökündə biznesin məsuliyyətlə aparılması dayanır və biz bu istiqamətdə irəliləmək üçün davamlı olaraq addımlar atırıq. 2021-ci ildə təsdiq edilmiş Davranış Məcəlləmiz əsas dəyərlərimizi və əməliyyatlarımızın idarə edilməsi və aparılması üçün standartları müəyyən edir. Məcəllə bizim bütün funksiyalarımızı əhatə edir və buna görə də, təkcə işçilərimiz üçün deyil, həm də təchizatçılarımız və biznes tərəfdaşlarımız üçün müvafiq davranış qaydalarını müəyyən edir. Davranış Məcəlləsinin əsas bəndləri Şəkil 6-da qeyd olunmuşdur.

**Şəkil 6. Bakcell-in Davranış Kodeksinin əsas prinsipləri**



Etik biznes davranışımız üzrə uğur əldə etmək üçün biz, uyğun idarəetmə strukturu işləyib hazırladıq. Etika üzrə məsul şəxs bütün etik məsələlərin diqqətə çatdırılmasını və vaxtında və ədalətli həllini təmin edir. Şura ilə birbaşa əlaqə yaradaraq, Etika məsələləri üzrə məsul şəxs mühüm məsələləri Şirkətin rəhbərliyinə çatdırmaq üçün müstəsna mövqeyə malikdir.

Bakcell-də mədəniyyət bir-birinə hörmət və inam üzərində qurulmuşdur, buna görə də əməkdaşlarımızın qeyri-etik davranışları aşkar etməsinə və bildirməsinə böyük inam vardır. Dəyərlərimizə uyğunluğu asanlaşdırmaq üçün biz, əməkdaşlarımızın bu cür məsələləri hesabat etməsinə yardımçı olmaq üçün lazımi mexanizmlərə malik olmasını təmin edirik. Qeyri-etik davranış aşkarlandıqda və ya belə şübhə olduqda, hər bir işçi komplayens qaynar xətti və ya telefon nömrəsi vasitəsilə müstəqil fəaliyyət göstərən və sorğuları araşdırmaq səlahiyyətinə malik olan Bakcell-in Etika və Şikayətlər Komitəsinə birbaşa və ya anonim şəkildə zəng edə və ya elektron məktub göndərə bilər.

Etik biznes davranışımızın əsas hissəsi rüşvətxorluğa və korrupsiyaya yol verilməməsi ilə bağlı ciddi siyasətimizdən ibarətdir. Buna nəzarət etmək və bu mədəniyyəti inkişaf etdirmək üçün biz rüşvətxorluq və korrupsiya ilə mübarizə standartlarını və onlara nəzarət mexanizmlərini müəyyən edən Rüşvətxorluqla mübarizə siyasəti işləyib hazırladıq. Həmçinin biz Rüşvərxorluqla mübarizənin idarə edilməsi Sistemi Şəhadətnaməsini (ABMS) əldə etmə mərhələsindəyik. Dürüstlük mədəniyyətini gücləndirmək məqsədilə biz Bakcell-in bütün əməkdaşları üçün Davranış Məcəlləsini və etika ilə bağlı digər məsələləri əhatə edən ABMS təlimləri keçirdik.

# Biznesin davamlılığı və COVID-19-un təsiri

Telekommunikasiya sektoru daxil olmaqla, dünyada elə bir sənaye sektoru yoxdur ki, COVİD -19 pandemiyası ona təsir etməmiş olsun. Bütün dünyada insanların həyatı məhdudiyyətlər və qapanmalar səbəbindən pozulduğundan və əksər müəssisələrin məsafədən iş rejiminə keçməsi ilə insanların hərəkəti dayandığından, telekommunikasiya sektoru ətrafdakı şəraitdən asılı olmayaraq insanları, dövlətləri, müəssisələri bir-biri ilə əlaqələndirməkdə mühüm rola malik olduğunu göstərdi. Telekommunikasiya şirkətləri cəmiyyətin fəaliyyətini qoruyub saxlamağa dəstək oldular, bununla belə pandemiya bu sektorun hüdüdlarını və dayanıqlılığını da sınağa çəkdi. Görünməmiş sayda insan biznesin davamlılığını təmin etmək məqsədilə telekommunikasiya infrastrukturuna güvəndiyi üçün xidmətlərimiz artan tələb və kibertəhlükəsizlik risklərinə qarşı daha həssas şəraitdə etibarlılıq baxımından sınaqdan keçdi.

Şirkət olaraq, biz COVID-19 dövründə təkcə xidmətlərin təchizatçısı kimi deyil, eləcə də işəgötürən olaraq göstərdiyimiz fəaliyyətlə fəxr edirik. Çevikliyimiz sayəsində biz müştərilərimizə və əməkdaşlarımıza yaranan istənilən şəraitdə ən yaxşı şəkildə işləməyə imkan verən proqramlar və təşəbbüslər hazırlayaraq, dəyişikliyə cəld və hərtərəfli şəkildə adaptasiya olduq. Biz məktəb və universitet tələbələri və müəllimləri üçün distant təhsili asanlaşdırmaq məqsədilə təhsil proqramları hazırladıq. İşçilərimizə COVID-19 pandemiyası dövründə evdən təhlükəsiz şəkildə işləmək imkanı vermək üçün mühüm FLEXcellence proqramını qəbul etdik ki, bu da bizim yeni iş tərzimizə çevrildi.

SƏTƏMM komandamız əməkdaşlarımızı zərərdən qorumaq üçün yorulmaz səyləri ilə təhlükəsizlik və ehtiyat tədbirləri mədəniyyətini inkişaf etdirdi. Kibertəhlükəsizlik komandamız pandemiya və Vətən Müharibəsi dövründə müştərilərin məlumatlarını xarici təcavüzkarlardan qorumaq üçün möcüzələr yaratdı. Bu, bizim nəslin ən böyük problemlərdən biri ilə dünyanın ilk dəfə üzləşdiyi vaxtdan bəri həyata keçirdiyimiz təşəbbüslərdən biridir.

Bakcell olaraq biz başa düşürük ki, rahatlıq hərəkətsizliyi bizi irəli aparmayacaq, ona görə biz bu çətinlikləri inkişaf etmək və daha yaxşı olmaq üçün fürsət kimi dəyərləndiririk. Çətinliklərə qarşı adaptasiya olunmağı təşviq edirik, ki bu yanaşma da bizim risklərin idarə edilməsi praktikamızı nəzərdən keçirməmizə təkan verdi. Biznesin Fasiləsizliyi, Böhran şəraitində idarəetmə və SƏTƏMM departamentinin nəzarətində olan Biznesin Fasiləsizliyinin İdarə edilməsi (BCM) prosesini inkişaf etdirməklə, biz gözlənilməyən hallar istisna olmaqla əməliyyatlarımızın problemsiz şəkildə davam etməsini təmin etməyə çalışırıq. BCM funksiyamız üçün tənzimləyici sənədlərə Biznesin Fasiləsizliyi Siyasəti, Biznes Təsirin Təhlili və Riskin Qiymətləndirilməsi prosedurları, BCM strategiyası, Böhran və Fövqəladə hallara cavab prosesi və Biznesin Fasiləsizliyi Planı aiddir.

Riskin idarə edilməsi təcrübəmizi nəzərdən keçirdikdən sonra biz tamamilə dayanıqlı inkişaf prinsiplərinə söykənən şirkət olmaq iddiamıza doğru irəlilədiyimizə əmin olmaq üçün dayanıqlı inkişaf risklərini və imkanlarını daha çox nəzərə almaq qərarına gəldik. Dayanıqlı inkişaf riskləri və imkanları haqqında ətraflı məlumat üçün Cədvəl 5-ə baxın.

## Cədvəl 5. Bakcell üçün dayanıqlı inkişafla bağlı risklər və imkanlar

| Sahə | Faktor | Cavab |
|---|---|---|
| Təhlükəsizlik və etibarlılıq | Risk<br>Kibertəhlükəsizlik və məlumatların sızması riskləri ilə əlaqədar İKT-yə tələbat və İKT-nın qəbul edilməsi azala bilər. | Risk<br>Bizim kibertəhlükəsizlik komandamız ən yüksək beynəlxalq standartlara uyğun olaraq işləyir və müştərilərimizin məlumatlarının təhlükəsizliyini təmin edir. |
| | İmkan<br>Şəffaf və etik biznes davranış sayəsində maraqlı tərəflərin etibarı arta bilər. | İmkan<br>Bizim biznes davranışımız bir sıra siyasətlərlə, tənzimləyici sənədlərlə və komitələrlə idarə olunur ki, onlar da öz növbəsində şəffaflığı, dürüstlüyü və etik tələblərin yerinə yetirilməsini təmin edir. |
| Rəqəmsal inklüzivlik | Risk<br>İnnovativ həllər həmişə cəmiyyətin bütün təbəqələri tərəfindən müsbət qarşılanmaya bilər, onlardan bəziləri şəbəkədən kənarda qala bilər. | Risk<br>Bizim xidmətlərimiz və məhsullarmız fərdi tələblərə uyğun hazırlanır və hər bir şəxsin fərdi tələblərinə uyğunlaşdırılması mümkündür. Eynizamanda biz müştərilərimizin məhsullarımız və xidmətlərimizdəki yeni dəyişikliklərə adaptasiya ola bilməsini təmin etmək üçün asan oxunan və istifadəçiyə rahat interfeysi dəstəkləyirik. |
| | İmkan<br>İKT qarşılıqlı əlaqəli dünya yaratmaq, cəmiyyətin iqtisadi inkişafına töhfə vermək və cəmiyyətdəki bütün qrupların, xüsusən də sıxışdırılmış qrupların və azlıqların iştirakını və rifahını təmin etmək imkanına malikdir. | İmkan<br>Biz, rəqəmsal inklüzivlik məsələsinə ciddi yanaşırıq və yaxın illərdə rəqəmsal inklüzivlik strategiyasını təqdim etməyi planlaşdırırıq. |
| Ekosistemin təsiri | Risk<br>İş yerindəki təhlükələr (məsələn, mobil rabitə qüllələrinin hündürlüyü və elektrik enerjisi ilə iş) işçilərin rifahına təhlükə yaradır. | Risk<br>- SƏTƏMM komandamız təhlükəsizlik tədbirlərini, prosedurlarımızı və avadanlıqlarımızı davamlı təkmilləşdirməklə əməkdaşlarımızın təhlükəsizliyini təmin edir. |
| | Risk<br>Təchizatçılar dayanıqlı inkişaf standartlarını və prinsiplərini pozmaq riskinə məruzdur. | Risk<br>Təchizatçılarımız dayanıqlı inkişaf standartlarının və prinsiplərinin pozulması riskini minimuma endirmək üçün müfəssəl şərtlər və tələblər toplusu ilə qiymətləndirilir. |
| | İmkan<br>Biz sosial və ekoloji fəaliyyətimizə yönəlmiş davamlı təşəbbüsləri həyata keçirməklə cəmiyyət üçün dəyər yarada bilərik. | İmkan<br>Enerji istehlakımızı və istixana qazı emissiyalarımızı azaltmaq üçün bərpa olunan enerji mənbələri, daha az zərərli yanacaq və LED işıqlandırma da daxil olmaqla bir sıra ekoloji təşəbbüsləri həyata keçirməyə davam edirik. |

| | | |
|---|---|---|
| | **İmkan**<br>Biz fəaliyyətini ədalətli və dayanıqlı şəkildə aparan təchizatçılarla birbaşa işləməklə ölkədə davamlı iqtisadi inkişafa töhfə verə bilərik. | **İmkan**<br>Məsuliyyətli bir şirkət olaraq biz yerli biznes ekosisteminin təkmilləşdirilməsinə dəstəyimizi təmin etmək üçün ilk növbədə yerli təchizatçılarla işləyirik. Təchizatçı Davranış Məcəlləmiz əməkdaşlıq etdiyimiz biznesləri seçmək üçün meyarlarımızın beynəlxalq standartlara və prinsiplərə əsaslanmasını təmin edir. |
| İqlim dəyişikliyi | **Risk**<br>İqlim dəyişikliyi nəticəsində yaranan kəskin hava şəraitləri biznesin dayanıqlı aparılması üçün təhlükə yaradır və infrastrukturumuzu zədələməklə şəbəkədə qəzalara və fasilələrə səbəb ola bilər. | **Risk**<br>Biznesin fasiləsizliyinin idarə edilməsi prosesi hər zaman şəbəkə sabitliyini təmin edir, çünki biz mövcud təhlükələri qiymətləndirir, yenilərini aşkar edir və onların aradan qaldırılması üçün vaxtında və kompleks tədbirlər həyata keçiririk. |
| | **İmkan**<br>Nəticələrin azaldılması və uyğunlaşdırılması siyasətləri sənaye sahəsinin dayanıqlılıq istiqamətində daha sürətli transformasiyasına yol aça və ekoloji göstəricilərimizi kəskin şəkildə yaxşılaşdıra bilər. | **İmkan**<br>Biz bir sıra təmiz enerji təşəbbüsləri vasitəsilə ekoloji göstəricilərimizi yüksəltməyə davam edirik və növbəti illərdə səylərimizi sürətləndirməyi planlaşdırırıq. |

# Məsuliyyətli təchizat zəncirinin idarə edilməsi

Satınalma - şirkətin fəaliyyətinə yardımçı olan ən vacib funksiyalardan biridir, bu səbəbdən də təchizatçıların araşdırılması prosesinin dayanıqlı və şəffaf olması bizim üçün mühüm əhəmiyyət daşıyır. Biz, insan hüquqları daxil olmaqla, ətraf mühit, sosial və idarəetmə məsələlərini əhatə edən kompleks yoxlamalar və təhlillər apararaq onların nəticələri əsasında biznes tərəfdaşlarımızı qiymətləndiririk. Bu, bizə satınalma prosesini şəffaf saxlamağa, eləcə də korrupsiya və rüşvətxorluğa yol verməməyə yardımçı olur.

Texnologiyalar sahəsində lider olaraq biz, rəqəmsallaşmanın dəyərini və onun satınalma prosesinin sadələşdirilməsinə təsirini başa düşürük. 2020-ci ildə biz rəqəmsal satınalma platforması layihəsinə başladıq və onun 2022-ci ilə qədər yekunlaşacağını ehtimal edirik. Bu platforma bizə təchizatçılarımızı daha asan idarə etməyə, onların tələblərə əməl etməsinə nəzarət etməyə və elektron mənbə seçimlərində kömək edəcək.

Biz müştərilərimizə təchizatçılarımız və biznes tərəfdaşlarımızla əməkdaşlıq qurmadan xidmət göstərə bilmərik və biz onları rifahın və inkişafın əldə edilməsi istiqamətində bizə qoşulması məqsədilə qəsdən seçirik. Ölkədə ən böyük telekommunikasiya şirkətlərindən biri olaraq, təchizatçılarımızı biznesin ədalətli və məsuliyyətli aparılması üzrə istiqamətləndirməyə və təlimatlandırmağa çalışırıq.

Təchizatçılara olan etibarın artmasının əhəmiyyətini dərk edərək və onların əməliyyatlarını qiymətləndirərək, biz Təchizatçı Davranış Məcəlləsini hazırladıq. Məcəllə bizə xarici biznes tərəfdaşlarımızla bağlı riskləri minimuma endirməyə və təchizatçılarımızı daha dayanıqlı biznes əməliyyatlarının aparılması istiqamətində təlimatlandırmağa kömək edir. Təchizatçılarımıza nəzarət etmək və onları qiymətləndirmək üçün Təchizatçı Davranış Məcəlləsinə aşağıdakı dörd əsas yanaşma daxildir. Bunlar monitorinq, hesabat və kommunikasiya, audit etmək hüququ və xitamvermədən ibarətdir. Ətraflı məlumat üçün Şəkil 7-yə baxın.

## Şəkil 7. Bakcell-in Təchizatçı Davranış Məcəlləsinin 4 prinsipi

Təchizatçı tərəfindən Məcəllənin yerinə yetirilməsinin müəyyən edilməsi və davamlı monitorinqi

Bakcell istənilən vaxt təchizatçının ərazisində audit apara bilər




Təchizatçı tərəfindən Davranış Məcəlləsinə hər hansı pozuntuların hesabat edilməsi və ehtiyac olduqda bütün qeydlərin Şirkətə təqdim edilməsi bacarığı

Məcəllənin tələbləri pozularsa Şirkət Təchizatçı ilə müqaviləyə dərhal xitam vermək hüququna malikdir.



**94%**
ümumi satınalma büdcəsi yerli təchizatçılara xərclənmişdir.

Biz yerli cəmiyyətimizə müsbət təsir göstərmək istəyirik. Yerli təchizatçılarla işləməyi seçməklə biz yerli biznesin inkişafına dəstək olmağa çalışırıq. Biz yerli müəssisələri istiqamətləndirməyə və yerli sahibkarları daha dayanıqlı biznesin aparılmasına həvəsləndirməyə çalışırıq.

# BİZ RƏQƏMSAL VƏ İNKLÜZİV DÜNYA QURURUQ

Sənaye sahəsinin təhlili
Texnologiyalar üzrə liderlik
Mükəmməl şəbəkə keyfiyyəti
İnformasiya təhlükəsizliyi və məlumatın məxfiliyi
Bakcell-in əməkdaşları
Bakcell-in müştəriləri
Sosial təsir və icmaların cəlb edilməsi

# Sənaye sahəsinin təhlili

2021-ci ilin rəqəmsallaşma və yüksək sürətli rabitə ili olduğu sübut edildiyi üçün telekommunikasiya sənayesi şəbəkə imkanlarını və hüquqlarını genişləndirməyə davam edir. İstehlakçıların müasir texnologiyalara və cihazlara üstünlük verməsi sənayenin əsas hərəkətverici qüvvəsinə çevrilmiş, mobil rabitə abunəçiləri sayının durmadan artması isə yüksək sürətli internet rabitəsinə sənayenin indiyə qədər görmədiyi çox yüksək tələbatın yaranması ilə nəticələnmişdir. Bu gün telekommunikasiya sənayesinin əsas diqqəti 5G şəbəkələrinin tətbiqinə yönəlib.

Bundan əlavə, sənayenin aparıcı şirkətləri gecikmələrin mümkün qədər azaldılması üçün kənar (periferik) hesablamalardan istifadə etməyə başladılar. Kənar hesablama müxtəlif avadanlıqlar vasitəsilə toplanmış və ötürülən məlumatların real vaxt rejimində çevrilməsini və işlənilməsini sürətləndirməyə imkan yaradır.  Müasir simsiz şəbəkələr şəbəkə imkanlarını artırmaq üçün məlumatların təhlili və araşdırılması nəzəriyyəsindən istifadə edir. Telekommunikasiya infrastrukturunda maşın öyrənməsinin tətbiqi şəbəkələrin mürəkkəb strukturunu sadələşdirir.

Bundan əlavə, dayanıqlı inkişaf telekommunikasiya sektorunun təkmilləşdirilməsində çox mühüm rol oynayır. 2021-ci ilin aprel ayına olan məlumata görə, qlobal mobil şəbəkələrin 50%-i sıfır emissiyalara əməl etməyi öhdəsinə götürüb. Bundan əlavə, investorların əksəriyyəti öz qərarlarında şirkətlərin ESG məqsədlərini yerinə yetirmək bacarığına əsaslanır. Sənaye sahəsinin məqsədi emissiyalarla əlaqədar iqlim neytrallığına nail olmaqdan, eləcə də müştərilərə öz karbon izlərini azaltmağa yardımçı olmaqdan ibarətdir.

Bu gün telekommunikasiya şirkətləri öz korporativ məsuliyyət məqsədlərini qorumaq üçün müxtəlif təcrübələrdən istifadə edirlər. Bunlar bərpa olunan enerji mənbələrindən istifadə və enerji istehlakının məhdudlaşdırılması, tullantıların idarə edilməsi və dairəvi iqtisadiyyat, eləcə də yaşıl infrastruktur və müştərilərin cəlb edilməsi ətrafında cərəyan edir.

## Şəkil 8. Telekommunikasiya sahəsində dayanıqlı inkişaf üzrə qlobal tendensiyalar




Telekommunikasiya sənayesinin (2021-ci ildə 5%-ə çatan) Qlobal ÜDM-də artan payını nəzərə alsaq, bu tendensiya xüsusilə vacib əhəmiyyətə malikdir. Telekommunikasiya sənayesinin payı üzrə son 10 il ərzində  sabit artım müşahidə edilmiş, 2014-cü ildən bəri 36% artım olmuş və 2025-ci ilə qədər əlavə yarım trilyon ABŞ dolları artacağı proqnozlaşdırılır.

Şəkil 9. Qlobal ÜDM-də telekommunikasiya bazarının payı, trilyon ABŞ dolları




# Texnologiyalar üzrə liderlik

Bakcell imkanları genişləndirən və əlaqələri təmin edən texnologiya əsaslı xidmətlər sayəsində həyat tərzini dəyişdirir. Biz, 3 milyona yaxın insana ən yaxşı inteqrasiya olunmuş telekommunikasiya xidmətləri və rəqəmsal təcrübələr toplusunu təqdim etməyə çalışırıq ki, bu da onlara iqtisadi inkişafa təkan verməyə və həyatlarını yaxşılaşdırmağa imkan verəcek.

2021-ci ildə biz müştərilərimizə ən yaxşı təcrübələri təqdim edə bilmək üçün şəbəkələrimizə yenidən sərmayə qoyduq və qabaqcıl rəqəmsal xidmətlərə investisiyamızı sürətləndirdik. Biz 4G müştəri bazamızı artırdıq və yüksək sürətli şəbəkələrimizin əhatə dairəsini genişləndirdik. BTS stansiyalarının sayını 2020-ci ildə 8549-dan 2021-ci ildə 8753-ə, LTE stansiyalarının sayını isə 2020-ci ildə 2713-dən 2021-ci ildə 2849-a çatdırdıq.




LTE stansiyalarının sayı, 2021

**2849**



BTS stansiyalarının sayı, 2021

**8753**

### Ən Sürətli Mobil Şəbəkə Bakcell

Bakcell 2021-ci ilin 1-ci və 2-ci rübündə Azərbaycanın ən sürətli mobil şəbəkəsi mükafatına layiq görülmüşdür. Bu mükafatı qazanmaq üçün Bakcell şəbəkədən orta yükləmə sürəti 32.99 meqabit, şəbəkəyə orta yükləmə sürəti isə 13.19 meqabit olmaqla ölkədə 41.85 mb ilə ən sürətli rabitə təminatçısı olmuşdur.

2021-ci il ərzində biz həmçinin rouminq xidmətlərimizin əhatə etdiyi ölkələrin sayını artırdıq. Səyahət məhdudiyyətləri və qapanmalar səbəbindən 2020-ci ildə rouminq gəlirimizin əhəmiyyətli dərəcədə azalmasından sonra qarşıdakı illərdə bu göstəricilərin tədricən bərpa olunacağını gözləyirik.

### Table 6. Bakcell-in rouminq xidmətləri, 2019-2021

| Göstəricilər | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| İnternet rouminq xidmətinin əhatə etdiyi ölkələrin sayı | 164 | 167 | 170 |
| Beynəlxalq 4G rouminq xidmətləri ilə əhatə olunan ölkələrin sayı | 87 | 93 | 103 |

İqtisadiyyatın və cəmiyyətin sürətli rəqəmsal transformasiyası fonunda strategiyamız strukturumuzun dəstəklənməsini və təkmilləşdirilməsini davam etdirməkdən, eləcə də fəaliyyət miqyasımızın genişləndirilməsi üçün kapital qoyuluşlarından istifadə edilməsindən və əsas xidmətlərimizin inteqrasiya olunmuş şəkildə inkişafından ibarətdir. Bunları yerinə yetirməklə biz, müştəri məmnunluğunu artırmaqla yanaşı xidmətlərimizdə mühüm irəliləyişlərə nail olmuşuq.

## Mükəmməl şəbəkə keyfiyyəti

Biz fəaliyyətimizdə ən müasir kommunikasiya infrastrukturundan istifadəni davam etdirir, həmçinin əhatə dairəsini, şəbəkənin əlçatanlığını, həcmini yaxşılaşdırmaq üçün şəbəkəmizin modernləşdirilməsinə və təkmilləşdirilməsinə və istifadəçi təcrübəsinə sərmayə qoyuruq. Müştərilərlə qarşılıqlı əlaqə və təcrübə müştərilərimizin bizə yanaşmasında mühüm rol oynayır, bu da o deməkdir ki, uğurumuz təqdim etdiyimiz xidmətin keyfiyyətindən asılıdır.

Biz 2021-ci ildə çıxış və xidmətin dayandırılması göstəricilərimizi mümkün olan ən yüksək dərəcədə təkmilləşdirməyimizlə fəxr edirik. Biz 2G və 3G səs və internet xidmətlərinə 99.9% çıxışa, 2G və 3G zəng kəsilmə göstəricilərinin isə müvafiq olaraq 0.3% və 0.13%-dək enməsinə nail olduq.



**99.9%** səs xidmətinə çıxış

**99.6%** internetə çıxış

**0.13%** zəng kəsilməsi

Bakcell müştərilərimizin ehtiyaclarını dəstəkləyən etibarlı və dayanıqlı şəbəkələrin istifadəsində sənaye lideridir. Şəbəkəmizə birlikdə xidmətlərimizin etibarlılığını və keyfiyyətini gücləndirməyə xidmət göstərən müxtəlif elementlər, texnologiyalar və biznes proseslər daxildir. Kritik ərazilərdə elektrik enerjisinin kəsilməsinin təsirini minimuma endirmək üçün biz batareyalar və generatorlar şəklində ehtiyat enerji vasitələrindən istifadə edirik.

# İnformasiya təhlükəsizliyi və məlumatın məxfiliyi

İnsanların gündəlik həyata keçirdikləri əməliyyatların əksəriyyəti virtual aləmə əsaslanır və qeyri-effektivliyi azaldaraq əvvəllər heç ağıla gəlməyən üsullarla əlaqə qurmaq üçün yeni imkanlar yaradır. Bununla belə, ayıq qalmaq da vacibdir, belə ki, bu rəqəmsal inkişaf təhlükəsizlik pozuntuları ilə müşayiət olunur. Müştərilərimizin məlumatlarının qorunması üzrə vəzifəmizi başa düşərək dünya üzrə ən yüksək təcrübə standartlarını yerinə yetirməyi hədəfləyirik.

Daxili Təhlükəsizlik və İnformasiya Təhlükəsizliyi (IIS) komandamız müştərilərimizi qüsursuz və təhlükəsiz əməliyyatlar təmin etmək üçün gərgin çalışır. Biz sistemlərimizi mümkün kibertəhlükəsizlik riskləri baxımından mütəmadi olaraq nəzərdən keçirir və onları vaxtında həll edirik. Bizim IIS komandamız bütün Bakcell Qrupu üçün İdarə olunan Təhlükəsizlik Xidməti Təminatçısı (MSSP) kimi işləyir. Əməliyyatlarımız məlumatın məxfiliyinə dair yerli qaydalara, eləcə də GSMA Mobil Məxfilik Prinsiplərinin tövsiyələrinə tam uyğundur. Kibertəhlükəsizlik və məlumatların məxfiliyi sahəsində mükəmməl işimizin təsdiqi olaraq biz 2020-ci ildə ISO 27001 İnformasiya Təhlükəsizliyi İdarəetmə sertifikatını əldə etdik. Bundan əlavə, rouminq əməliyyatlarımız da hərtərəfli kibertəhlükəsizlik prosedurlarımızla dəstəklənir.

2018-ci ildən biz sistemlərimizdə mümkün çatışmazlıqları müəyyən etmək üçün rüblük nüfuz testləri həyata keçiririk. Biz həmçinin məlumatların məsuliyyətlə idarə olunması mədəniyyətini təşviq etməyə çalışırıq. Bu məqsədlə biz mütəmadi olaraq əməkdaşlarımız üçün məlumatların məxfiliyi və informasiya təhlükəsizliyinə dair icbari təlimlər keçiririk.

## Cədvəl 7. Bakcell-də məlumatların məxfiliyi və təhlükəsizliyinə dair təlim sessiyası, 2019-2021

| Göstəricilər | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| İştirakçıların sayı | 351 | 109 | 114 |

Sosial məsuliyyətli şirkət olaraq biz gənc nəslin inkişafında da mühüm rol oynaya biləcəyimizi anlayırıq. Resurslarımız valideynlərə yetkinlik yaşına çatmayan uşaqlarını uyğun olmayan məzmundan habelə kiber zorakılıq və təcavüzdən qorumaqda, internet resurslarından xeyirli məqsədlər üçün istifadə olunmasını təmin etməkdə dəstək olmaq imkanı verir. Dünya internet resurslarından getdikcə daha çox asılı olduğundan, biz məlumatların məsuliyyətli idarə olunmasında öz vəzifələrimizi yerinə yetirdiyimizə əmin olmaq istəyirik.

İllərdir ki, biz azyaşlılar arasında internetdən məsuliyyətli istifadə ilə bağlı təlimlər təşkil etmək üçün ENGINET ilə əməkdaşlıq edirik. Bu təlim sessiyaları valideynləri və tələbələri azyaşlıların İnternetdə təhlükəli məzmuna məruz qalmaması üçün lazım olan məlumat və alətlərlə təmin edir. Biz həmçinin valideynlərə uşaqları üçün arzuolunmaz məzmunu ayırmaq imkanı verən "Təhlükəsiz İnternet" paketini təklif edirik.

# Bakcell-in əməkdaşları

Biz 1500-dən çox işçisi olan bir şirkətik və onların hər biri biznesimizə öz töhfəsini verir. Qarşılıqlı hörmətə əsaslanan, mədəniyyət baxımından fərqli və peşəkar bir mühitdə birlikdə irəliləmək üçün müxtəlif insanları bir araya gətirdik.

Şirkətimizdə insan resurslarının idarə edilməsi dinamik və fərqli iş yerimizi nəzərə almaqla işlənib hazırlanmış strategiyaya əsaslanır. Biz, 2019-cu ildən "İnsanlara Yatırım" strategiyasını həyata keçiririk və əldə etdiyimiz uğurlar rəqəmsallaşma, səmərəlilik və məşğulluq kimi sahələrdə əsas İR idarəetmə prioritetlərimizi birbaşa əks etdirir. Biz məlumatların əl ilə işlənilməsinə sərf olunan vaxtı azaltmaq və bununla da ümumi səmərəliliyi artırmaq üçün İR proseslərimizin əksəriyyətini rəqəmsallaşdırmağa davam edirik.

Rəqəmsallaşdırma istiqamətində səylərimiz sayəsində işəqəbul, ödəniş və müavinətlər və digərləri ilə yanaşı fəaliyyətin idarə edilməsi üzrə rəqəmsal həllər müəyyən etdik. Həmçinin əməkdaşlarımızın sorğu əsasında tez bir zamanda və asanlıqla İR xidmətləri əldə etməsi üçün rəqəmsal platforma olan İR dəstək xidmətini işə saldıq.

Bundan əlavə, biz bu proseslərə cəlb edilən bütün tərəflər üçün prosesi sadələşdirmək məqsədilə karyera inkişafı və təlimin idarə edilməsi sistemlərini rəqəmsal həllərə keçirdik. Oracle Fusion vasitəsilə gündəlik əməliyyatlarımızı rəqəmsallaşdırmaqla biz, yerinə yetirdiyimiz hər bir işdə səmərəlilik naminə biznesimizi dəyişdirməyə və əməliyyatlarımızı optimallaşdırmağa çalışırıq.

## Cədvəl 8. Bakcell-in cinsə görə əməkdaşlarının ümumi sayı, 2019-2021[2]

| | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| Əməkdaşların ümumi sayı | 1368 | 1406 | 1575 |
| Kişi əməkdaşların ümumi sayı | 832 | 885 | 1030 |
| Qadın əməkdaşların ümumi sayı | 536 | 521 | 545 |

[2]Hesabatda təqdim olunan əməkdaşların ümumi sayına Bakcell əməkdaşlarından əlavə Bakcell üçün şəbəkə və funksional xidmətlər göstərən şirkətin əməkdaşlarının sayı əlavə olunmuşdur.

## Cədvəl 9. Bakcell-in vəzifələr üzrə əməkdaşlarının sayı, 2019-2021

| | 2019 | | 2020 | | 2021 | |
|---|---|---|---|---|---|---|
| | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın |
| **Rəhbər şəxslər** | 206 | 65 | 180 | 66 | 189 | 70 |
| **Cəmi** | 271 | | 246 | | 259 | |
| **Mütəxəssis** | 402 | 287 | 463 | 313 | 532 | 355 |
| **Cəmi** | 689 | | 776 | | 887 | |
| **Digər** | 224 | 184 | 242 | 142 | 309 | 120 |
| **Cəmi** | 408 | | 384 | | 429 | |

## Cədvəl 10. Bakcell-də işə qəbul olunan işçilərin sayı və işçi dövriyyəsi, yaşa görə, 2019-2021

| | 2019 | | | 2020 | | | 2021 | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | <30 | 30-50 | >50 | <30 | 30-50 | >50 | <30 | 30-50 | >50 |
| İşə qəbul olunan işçilər | 182 | 70 | 2 | 153 | 211 | 7 | 206 | 193 | 19 |
| İşçi dövriyyəsi | 163 | 169 | 6 | 109 | 214 | 10 | 104 | 133 | 12 |

## Cədvəl 11. Bakcell-də işə qəbul olunan işçilərin sayı və işçi dövriyyəsi, cinsə görə, 2019-2021

| | 2019 | | 2020 | | 2021 | |
|---|---|---|---|---|---|---|
| | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın |
| Yeni işə götürülən işçilərin ümumi sayı | 168 | 86 | 259 | 112 | 303 | 115 |
| İşçi dövriyyəsinin ümumi sayı | 240 | 98 | 206 | 127 | 158 | 91 |

Müxtəlifliyə və inklüzivliyə çox sadiq olan bir şirkət kimi biz davamlı olaraq işçilərimiz arasında fəaliyyətimizi və təmsilçiliyimizi yaxşılaşdırmaq üçün yollar axtarırıq. Şirkətimizi müxtəlif millətlərdən və etnik qruplardan, yaş kateqoriyalarından, cinslərdən, dini inanclardan olan və müxtəlif bacarıqlı olan insanlar təmsil edir, burada hər kəs məsələlərə dair öz unikal yanaşması ilə töhfə verməyə həvəsləndirilir. İnklüzivliyimiz bizim gücümüzdür, çünki o, sağlam və inkişafa söykənən mühitin müxtəlif ideyalar və baxışlar üzərində qurulduğunu sübut edir.

Bərabər və ədalətli təmsil olunma öhdəliyimizin bir hissəsi kimi, 2020-ci ildə obyektiv biznes davranışının 5 prinsipini əks etdirən ilk Müxtəliflik və İnklüzivlik Siyasətini qəbul etdik.

## Cədvəl 12. Bakcell-də müxtəliflik və inklüzivlik üzrə beş prinsip

| Müxtəliflik və inklüzivliyə hörmət | Qanun və beynəlxalq konsepsiyalara uyğunluq | Təkəbbürlü olmamaq | Ayrıseçkiliyə yol verməmək | Məlumatlılıq |
|---|---|---|---|---|
| Biz işimizi müxtəlifliyə və inklüzivliyə maksimum hörmət nümayiş etdirən şəkildə aparmağa çalışırıq. | Biz bütün yerli qanun və qaydalara, eləcə də beynəlxalq səviyyədə tanınmış konsepsiyalara əməl etməyə çalışırıq. | Biz müxtəliflik və inklüzivlik pozuntularında iştirak etməyə könüllü surətdə imtina edirik. | Biz heç kimin heç bir əsasda ayrı-seçkiliyə məruz qalmadığı bir iş mühiti yaradırıq. | Biz iş yerində müxtəliflik və inklüzivlik haqqında məlumatlılığı fəal şəkildə dəstəkləyirik. |

Müxtəliflik və İnklüzivlik Siyasətimizdə aydın şəkildə qeyd olunduğu kimi, biz heç bir ayrı-seçkiliyə, təqibə və ya zorakılığa yol vermirik və iş yerində bu cür məsələləri həll etmək üçün bütün lazımi tədbirləri həyata keçiririk. Bizim işə qəbul və seçim prosesimiz cinsindən, irqindən, cinsi oriyentasiyasından, yaşından, etnik mənsubiyyətindən və ya mümkün ayrı-seçkilik halları üçün hər hansı digər əsaslardan asılı olmayaraq, bərabər imkanların təqdim edilməsi prinsipinə əsaslanır. İşə qəbul siyasətimizdə işə qəbul və seçim prosesinin ədalətli və obyektiv şəkildə aparılması meyarları təqdim olunur.

Müxtəliflik və İnklüzivlik Siyasəti həmçinin hər kəsin öz şəxsi həyatını və rifahını qurban vermədən peşəkar şəkildə inkişaf edə bildiyi bir mühitin yaradılması üçün iş-həyat balansının və çevik iş imkanlarının mühüm əhəmiyyət kəsb etdiyini təsdiq edir. Bu siyasətə uyğun olaraq biz, həmçinin istedadlı kadrları cəlb etmək, həvəsləndirmək və saxlamaq üçün ədalətli və müvafiq mükafatlar verməyə çalışırıq. Bonus və həvəsləndirmə proqramlarımız Nailiyyətlər üzrə Mükafatlandırma Siyasətimizlə tənzimlənir.

Müxtəliflik və İnklüzivlik Siyasətimizdəki digər mühüm məqamlardan biri də işçilərimiz arasında təlim və inkişafın təşviq edilməsidir. Biz hər bir işçiyə potensiallarını tam şəkildə həyata keçirmələri üçün bərabər imkanlar yaratmağa çalışdığımız üçün bu istiqamətdə səylərimiz ilk olaraq Təlim və İnkişaf Siyasətimizlə tənzimlənir. Bakcell Qrupda biz müxtəlif mənşəli və təcrübəli insanlar arasında fərqləri qəbul edirik; buna görə də biz mədəniyyət müxtəlifliyinə və əməkdaşlarımızın mədəni, sosial və dini kimliyinə hörmət edirik. Biz həmçinin bizimlə ədalətli və davamlı biznes qurmaq istəyən müəssisələrin əməkdaşlığı və dəstəyi sayəsində ahəngli cəmiyyətlər qurmağa çalışırıq.

Dəyərlərə sadiq qalan Şirkət olaraq, cinsindən asılı olmayaraq bütün insanlara bərabər imkanların təqdim olunduğu bir dünya qurmağa səy göstəririk. Bu istəyimizi reallaşdırmaq üçün biz hazırda 2022-ci ildə həyata keçirilməsi nəzərdə tutulan gender bərabərliyi və qadınların səlahiyyətlərinin artırılması üzrə "Biz edəcəyik" adlı genişmiqyaslı layihə üzərində işləyirik. Bu layihə daxili proseslərimiz və xarici təşəbbüslərimiz vasitəsilə gender bərabərliyinin sistemli və struktur inteqrasiyasını nəzərdə tutur.

Tam ədalət və bərabərlik mədəniyyəti yaratmaq məqsədimizin iddialı olduğunu dərk edərək, biz, işçilərimizin əsas dəyərlərimizə və prinsiplərimizə uyğun hərəkət etmək üçün zəruri olan alətlərə və biliyə malik olduğu mühit yaratmağa çalışırıq. Bu səbəbdən biz Şirkətimizdə qurduğumuz təlim və inkişaf planları ilə fəxr edirik.

Biz hər il işçilər üçün minimum məcburi təlim saatları olan təlim gündəliyi hazırlayırıq və onların təlim göstəricilərini daim nəzarətdə saxlayırıq. İşçilərimizin şəxsən və peşəkar inkişafı üçün imkanlar yaratmağa çalışırıq, buna görə də yerli istedadların liderlik potensialının inkişaf etdirilməsi və xarici mütəxəssislərdən asılılığın azaldılması məqsədi daşıyan "Vərəsəliyə Hazırlıq" Proqramını həyata keçiririk. Biz həmçinin "İşçilərlə qarşılıqlı əlaqələrin qurulmasını mənimsəmək üçün üç ay" mövzusunda təlim proqramını həyata keçirmişik. Bu təlim proqramının məqsədi menecer səviyyəli əməkdaşlarımıza ofisdə və ya məsafədən işləmələrindən asılı olmayaraq öz komanda üzvlərini işə cəlb etmək imkanı yaratmaq idi.

## Cədvəl 13. 2019-2021-ci illər üzrə Bakcell-də cinsə və vəzifəyə görə ümumi təlim saatlarının sayı[3]

| | 2019 | | 2020 | | 2021 | |
|---|---|---|---|---|---|---|
| | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın |
| **Təlim saatlarının ümumi sayı** | 4230 | 4219 | 1649 | 575 | 24424 | 14259 |
| **Rəhbər işçilər** | 1131 | 1100 | 147 | 50 | 5800 | 3320 |
| **Mütəxəssislər** | 3099 | 3119 | 1502 | 525 | 13233 | 7772 |
| **Digər** | | | | | 5392 | 3166 |

İstedadların inkişaf etdirilməsi öhdəliyinə sadiq qalan şirkət olaraq, biz vaxtımızı və resurslarımızı ölkəmizin gənc kadrlarının inkişafına sərf edirik. Gənclərlə işləmək onlar üçün təkcə karyera imkanları açmır, eləcə də bizə sənayeyə yeni baxışı olan gənc istedadları cəlb etmək imkanı verir. Bu öhdəliyi yerinə yetirmək üçün biz bu il ilk yay təcrübəçi proqramını reallaşdırdıq. Biz həmçinin sənaye sahəsindəki təcrübəmizi paylaşmaq məqsədilə gənc tələbələrə təlimlər və seminarlar keçirmək üçün universitetlərlə davamlı olaraq işləyirik.

İşçilərimizin öz potensialını maksimum səviyyədə reallaşdırmasını təmin etmək məqsədilə onların əqli və fiziki rifahı üçün lazımi şərait yaratmağa çalışırıq. Buna düzgün və təhlükəsiz iş mühitinin təmin edilməsi aiddir. SƏTƏMM komandamız bütün binalarımızın ən yüksək təhlükəsizlik və sağlamlıq standartlarına cavab verdiyinə əmin olmaq üçün böyük səylə çalışır. ISO 45001 sertifikatını əldə etmək istiqamətində səylərimiz işçilərin sağlamlığı və təhlükəsizliyi üzrə öhdəliyimizi əks etdirir. İstər ofisdə, istərsə də anbarlarda, məlumat mərkəzlərində və ya mobil qüllələrdəki əməkdaşlarımızla əlaqədar təhlükəsizlik bizim üçün hər zaman ən əsas prioritet olaraq qalır. Binalarımızın əksəriyyətində iş şəraiti təhlükəsizlik yanaşması baxımından yüksək risk daşımasa da, mobil qüllədə çalışan işçilərimizin iş yerində xəsarət alma riski yüksəkdir. Onların təhlükəsizliyini təmin etmək məqsədilə biz qülləyə qalxma üçün ən son təhlükəsizlik avadanlığını əldə edir və onların işləkliyini mütəmadi olaraq qiymətləndiririk.

[3]2021-ci ildə müşahidə olunan kəskin artım bu period ərzində əməkdaşlara bir sıra pulsuz internet resurslarının təklif olunması və onların bu resurslardan faydalanaraq təlim saatlarını artırması ilə əlaqəlidir.

## Cədvəl 14. Bakcell-də 2019-2021 illər üzrə SƏTƏMM təlimi keçmiş işçilərin statistikası

| | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| **SƏTƏMM təlimi keçmiş işçilərin sayı** | 817 | 890 | 1197 |
| **SƏTƏMM təlim saatları** | 150 | 60 | 60 |

COVID-19 pandemiyası zamanı biz dünyanın qəfil üzləşdiyi qeyri-müəyyən vəziyyətdə sürətli, hərtərəfli və qətiyyətli həllər təqdim edən qabaqcıl şirkət olduq. İşçilərimizin və onların ailələrinin təhlükəsizliyini təmin etmək üçün biz bütün əməliyyatlarımızı müştərilərimizə göstərilən xidmətlərdə fasilələrə yol vermədən sürətli şəkildə məsafədən iş rejiminə uyğunlaşdırdıq. Biz bütün işçilərin öz evlərində müvafiq iş şəraitinə malik olmasını təmin etdiyimiz halda, kibertəhlükəsizlik komandamız həssas və fərdi məlumatların qorunması üçün yüksək təhlükəsizliyin təmin edilməsi üzərində çalışmışdır.

## Cədvəl 15. Bakcell-də SƏTƏMM sərmayələri, 2019-2021

| | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| **İş şəraitinin təkmilləşdirilməsinə ümumi sərmayələr, AZN ilə** | 1,040,000 | 1,040,000 | 50,100 |
| **Fərdi qoruyucu avadanlığa ümumi sərmayələr, AZN ilə** | N/A | 231,898 | 150,000 |
| **İş yerində COVİD-lə mübarizə tədbirləri üçün ümumi sərmayələr, AZN ilə** | N/A | 406,000 | 400,000 |

COVID-19 pandemiyası ilə bağlı vəziyyət dünyada bir çox insana ciddi təsir etdiyi halda, bizə daha da çox nailiyyətlər əldə edə biləcəyimizi sübut etdi. İşəgötürən olaraq biz anladıq ki, ofisdən işləmək kimi ənənəvi yanaşma artıq keçmişdə qaldı, belə ki, əməkdaşlarımız məsafədən işləyərkən öz öhdəliklərini ən yaxşı şəkildə həyata keçirməyə davam edirdilər. Biz işçilərimizə istər evdən, istərsə də ofisdən işləmək seçimini verməklə onlara inkişaf etmək imkanı yaratmaq istəyirik. FLEXcellence proqramı sayəsində işçilərimiz öz tələblərinə uyğun olan iş rejimini seçə bilərlər. Bu proqram çərçivəsində biz bütün daxili siyasət və prosedurlarımızın məsafədən işləməyə münasib olması məqsədilə uyğunlaşdırdıq.

FLEXcellence proqramı təkcə əməkdaşlarımızın evdən işləməsi vasitəsi deyil, eləcə də, bizim işçilərimizin rifahı üçün çalışdığımızı göstərə bilmək vasitəsidir. Biz işçilərimizin inkişaf etdiyi və onlara dəyərli olduqlarını bildiyi bir mühit yaratmaq istəyirik. Biz əməkdaşlarımızla onların iş şəraitindən və onları əhatə edən mühitdən məmnunluq dərəcəsini öyrənmək üçün əlaqə saxlayırıq. Biz hər bir şəxsdən birbaşa rəyin əldə edildiyinə əmin olmaq istəyirik. Hər hansı maraqların toqquşması hallarının qarşısını almaq üçün rəy sorğularımız müntəzəm qaydada və anonim şəkildə həyata keçirilir.

# Bakcell-in müştəriləri

Biz ailə və dostlarla, iş və məktəblərlə, resurslar və məlumatlarla əlaqədə olmağın nə qədər vacib olduğunu bilirik – bu səbəbdən bizim üçün mühüm əhəmiyyət kəsb edən müştərilərimizin hər zaman əlaqədə olması öhdəliyini öz üzərimizə götürürük. 2021-ci ilə çoxlu imkanlarla və bütün müştərilərimizə birinci dərəcəli xidmətlərin göstərilməsinə ciddi fokuslanmaqla daxil olduq.

Bakcell olaraq biz müştərilərimizə daha yaxşı həyat sürməyə imkan verən məhsulların hazırlanmasına inanırıq. Müştərilərimizə dolğun və əlaqəli həyat sürmək imkanı təklif etmək üçün əlçatan bütün resurslardan istifadə edirik. Müştəri bazamızın müxtəlifliyini nəzərə alaraq, biz müxtəlif müştəri seqmentləri ilə səmərəli, aydın və şəffaf kommunikasiya kanallarının saxlanmasında üzərimizə düşən məsuliyyəti dərk edirik. B2B və B2C müştərilərimiz onların fərdi tələblərinə uyğunlaşdırılmış müxtəlif xidmət və məhsullardan zövq alırlar.

### Şəkil 10. Bakcell-in korporativ (B2B) xidmətləri

**Mənim Bakcellim Business**

Mənim Bakcellim Business tətbiqi B2B müştərilərimizə öz Bakcell nömrələrini asanlıqla və effektiv şəkildə idarə etməyə imkan verən alətdir.

**Toplu SMS**

Toplu SMS funksiyamız vasitəsilə bizneslər mesajları eyni anda çoxlu sayda mobil telefona çatdıra bilərlər.

Eyni zamanda, B2C müştəri seqmentimizin bazarda mövcud olan çoxsaylı qabaqcıl xidmət və məhsullara çıxışı vardır. Bunlara təhsil, ortaq internet çıxışı, məsafədən iş və sosial şəbəkələr üçün hərtərəfli paketlər aiddir. Fərdi müştərilər şəxsi tariflərini, paketlərini və nömrələrini idarə etmək üçün Mənim Bakcellim tətbiqindən istifadə edə bilərlər. COVID-19 pandemiyası biznesin aparılması üsulunu dəyişdirdiyi üçün biz də öz biznes modelimizə müvafiq düzəliş etməli olduq və hazırda müştərilərimiz SİM kartların evə çatdırılması xidmətindən faydalana bilərlər. Həmçinin biz, ən aktual texniki məsələləri həll etmək və zəng edən müştərilərə ən yüksək keyfiyyətli xidmətlər göstərmək üçün 24/7 rejimdə çalışan zəng mərkəzinin peşəkar mütəxəssis dəstəyini təklif edirik. Müştərilərimiz həmçinin Ulduzum loyallıq proqramından istifadə edərək endirimlər, "kəşbək"ler, yerli və beynəlxalq loyallıq proqramları ilə tərəfdaşlıqdan bonus ballarının əldə edilməsi kimi bir sıra reklam xarakterli xidmətlərdən faydalana bilərlər.

## Şəkil 11. Bakcell-in pərakəndə (B2C) xidmətləri

**Mənim Bakcellim**

Mənim Bakcellim tətbiqi şəxsi tariflərin, paketlərin və nömrələrin müstəqil şəkildə idarə edilmə vasitəsidir.

**Ulduzum**

Ulduzum "kəşbək", endirimlər və yerli və beynəlxalq loyallıq proqramlarından əldə edilən bonus xalları kimi bir sıra xidmətləri təmin edir.

## Cədvəl 16. Bakcell-in aktiv müştəriləri, 2019-2021

| | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| **Aktiv müştərilərin ümumi sayı** | 2,704,905 | 2,593,059 | 2,883,312 |

Yerli biznesi dəstəkləyən bir şirkət olaraq biz satışlarımızın əhəmiyyətli hissəsini idarə etmək üçün bir sıra rəsmi dilerlərlə əməkdaşlıq edirik. Ümumilikdə ölkə üzrə 108 diler mağazamız vardır. Müştərilərimizin bizdən birbaşa əldə etdiyi rabitə kimi dilerlərimizdən də eyni keyfiyyətdə xidmətlər almasını təmin etmək üçün biz dilerlərlə bağlı sorğular keçirir, onların fəaliyyətinə dair rəy toplayır və onları daha sonra təkmilləşdirmək üçün lazımi dəstəklə təmin edirik.

## Cədvəl 17. Bakcell üzrə satış kanalları, 2019-2021

| | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| **Pərakəndə satış mağazalarının sayı** | 1 | 2 | 6 |
| **Diler mağazaları** | 116 | 106 | 108 |
| **Dilerlərin sayı** | 106 | 98 | 99 |
| **Eksklüziv dilerlər** | 96 | 86 | 88 |
| **Ortaq xidmət mərkəzləri olan dilerlər** | 20 | 20 | 20 |
| **Digər pərakəndə satış kanalları** | 1 | 3 | 3 |

Həmçinin biz daim öz əməliyyatlarımızı və müştərilərimizlə qarşılıqlı əlaqələri yaxşılaşdırmaq üçün yollar axtarırıq. Biz birbaşa effektiv ünsiyyət vasitəsi ilə hər bir şəxsə və korporativ müştərimizə dəyər qatdığımıza əmin olmaq istəyirik. Bu məqsədlə biz mütəmadi olaraq müştərilərimizi zəng mərkəzimiz, sosial media hesablarımız, LiveChat kimi müxtəlif kommunikasiya kanalları vasitəsilə xidmətlərimizlə bağlı rəy bildirməyə çağırırıq. LiveChat gündəlik orta hesabla 210 sorğunu və sualı 18 saniyədə cavablandıran və 24/7 rejimində çalışan Müştəri sorğu platformasıdır. Biz daha yaxşı işləməyə və daha yaxşı olmağa səy göstərdiyimiz üçün müştərilərimiz hər bir rəyi və hər bir fikri bizim üçün mühüm əhəmiyyət kəsb edir.

Müştərilərimizə dəyərini artırmaq üçün biz yalnız kommunikasiya kanallarımızı deyil, eləcə də əməliyyat keyfiyyətimizi daim təkmilləşdirməyə çalışırıq. Biz texnologiyanın müasir dünyada nə qədər mühüm rola malik olduğunu bilirik. Texnologiya müharibə və ya pandemiya nəticəsində ayrılmış ailələr və dostlar arasında, əməkdaşlıq etmək və daha yaxşı bir dünya qurmaq yollarını axtaran sənaye liderləri arasında, millətlər və qlobal böhranın həlli yollarını araşdıran hökumət liderləri arasında körpülər qurur. Texnologiya dünyanı əvvəllər heç zaman görünməmiş üsullarla əlaqələndirir və bir şirkət olaraq biz inkişaf etmək və bu həllin bir hissəsi olmaq səylərimizdə israrlıyıq.

Şəbəkənin keyfiyyətini və etibarlılığını artırdıqca və təkmilləşdirdikcə əməliyyat göstəricilərimiz artmağa davam edir.

## Cədvəl 18. Bakcell üzrə əməliyyat göstəriciləri, 2019-2021

| | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| **Yükləmə surəti** | | | |
| **Orta 3G yükləmə sürəti** | 2,459 | 2,454 | 2,830 |
| **Orta 4G yükləmə sürəti** | 13,822 | 13,766 | 15,676 |
| **Səs xidmətinə çıxış** | | | |
| **2G səs xidmətinə çıxış** | 99.82 | 99.81 | 99.82 |
| **3G səs xidmətinə çıxış** | 99.74 | 99.52 | 99.8 |
| **Zəng kəsilmə göstəricisi və internetə çıxış** | | | |
| **2G zəng kəsilməsi** | 0.30 | 0.36 | 0.38 |
| **3G zəng kəsilməsi** | 0.18 | 0.16 | 0.13 |
| **İnternetə çıxış** | 99.46 | 99.57 | 99.58 |
| **İnternet trafiki, petabayt ilə** | 60.34 | 58.9 | 67.77 |

## Cədvəl 19. Bakcell üzrə BTS və LTE stansiyalarının sayı

| | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| **BTS-lərin sayı** | 8,638 | 8,549 | 8,753 |
| **LTE stansiyaların sayı** | 2,738 | 2,713 | 2,849 |

## Cədvəl 20. Bakcell-in rouminq xidmətlərinin əhatə dairəsi

| | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| **İnternet rouminq xidmətləri ilə əhatə olunan ölkələrin sayı** | 164 | 167 | 170 |
| **4G beynəlxalq rouminq xidməti ilə əhatə olunan ölkələrin sayı** | 87 | 93 | 103 |

Şəbəkəmiz qlobal miqyasda genişlənməyə davam edir, belə ki, biz bazarda rouminq xidmətləri üzrə lider olmağa çalışırıq. Müştərilərimiz dünyanın əksər ölkələrində standart internet və 4G ilə bir sıra rouminq xidmətlərindən, eləcə də təyyarə daxilində rouminq xidmətlərindən istifadə edə bilərlər.

# Sosial təsir və icmaların cəlb edilməsi

Fəaliyyət göstərdiyimiz illər ərzində biz özümüzü əməkdaşlarına həqiqətən qayğı ilə yanaşan bir şirkət kimi tanıtdıq. Biz göstərmək istəyirik ki, bizim qayğımız yalnız bizimlə bilavasitə çalışan insanlara deyil, eləcə də bütün cəmiyyətə yönəlmişdir. Şirkət olaraq biz cəmiyyətimizlə əməkdaşlığı gücləndirmək və həqiqi dəyər vermək məqsədilə xidmət göstərməyə çalışırıq.

Bütün potensialını reallaşdırmaq üçün hər kəsin bərabər imkanlara malik olduğu inklüziv cəmiyyət yaratmaq səyimiz yerli cəmiyyətlə qarşılıqlı əlaqə strategiyamıza zəmin yaratdı. 2020-ci ildə təsdiq olunmuş İcmanın cəlb olunması Siyasətimiz cəmiyyətlə işimizin məqsəd və prinsiplərini əks etdirir.

Bu siyasətin məqsədi sosial təşəbbüslərimizi DİM-lərə və müvafiq beynəlxalq konsepsiyalara uyğunlaşdırmaqdır. Yerli icmaların cəlb edilməsi üzrə idarəetmə istiqamətlərini seçərkən biz yerli icmalarımız üçün uzunmüddətli dəyər yaratmağa və icmanın cəlb edilməsi prinsiplərini strateji qərarvermə prosesinə inteqrasiya etməyə çalışırıq.

## Cədvəl 21. Bakcell-də icmaların cəlb edilməsi prinsipləri

| Müxtəliflik və inklüzivlik | Bərabər imkanlar | Fəal kommunikasiya | Bilik mübadiləsi |
|---|---|---|---|
| Cəmiyyətdə rəqəmsal maneələri azaltmaq üzərində işləyərək biz inklüzivlik və müxtəlifliyə dayanan cəmiyyəti təşviq etməyə çalışırıq. | Biz hamı üçün bərabər imkanlar yaratmaqla həssas qrupları və azlıqları gücləndirmək istəyirik. | Biz kritik problemlərin vaxtında həllini təmin edə bilməyimiz üçün yerli cəmiyyətlə birbaşa ünsiyyətə fəal şəkildə qoşuluruq. | Biz maraqlı tərəflər və partnyorlarla İcmanın cəlb edilməsi ilə bağlı bilik və təcrübəmizi paylaşmağa çalışırıq. |

İcmanın cəlb edilməsi ilə bağlı strategiyamıza tam uyğun olaraq, biz daha geniş cəmiyyət üçün uzunmüddətli dəyər yaratmaq məqsədilə planlaşdırılmış uzunmüddətli və irimiqyaslı layihələrə başlayırıq. Bu düşüncəyə uyğun olaraq, COVID-19 ilə əlaqədar qapanmalar zamanı tələbələrin təhsil ehtiyacları və müəllimlər üçün uyğunlaşdırılmış münasib paketlər hazırladıq. Həmçinin biz, ENGINET və Təhsil Nazirliyi ilə əməkdaşlıq çərçivəsində "Virtual Təhsilə Dəstək" layihəsini işləyib hazırladıq ki, bu da karantin dövründə təhsil işçiləri üçün lazım olan bütün alətləri təmin etmək məqsədi daşıyır.

Biz "Supermarket" təşəbbüsümüz vasitəsilə ehtiyacı olan ailələri dəstəkləməyə davam edərək bir çox sayda ailəyə ərzaq və ilkin tələbat məhsullarını təqdim etmişik. Hesab edirik ki, ərzaq təhlükəsizliyi insanların əsas hüququdur; buna görə də biz sistemli və strukturlaşdırılmış təşəbbüslər vasitəsilə bu həllə dəstək olmağa çalışırıq.

Ölkədə ərzaq təhlükəsizliyinin dəstəkləmək öhdəliyimizə sadiq qalaraq, biz həmçinin resursların dayanıqlı idarə edilməsini inkişaf etdirməklə gənclərin kənd təsərrüfatı sektorunda İT üzrə biliklərini artırmaq məqsədini daşıyan AgroHackaton 2020-nin keçirilməsi çərçivəsində Kənd Təsərrüfatı Nazirliyi, Aqrar Elm və İnnovasiya Mərkəzi və Azərbaycan Dövlət Neft və Sənaye Universiteti ilə əməkdaşlıq etdik. Yarışda gənc istedadlardan ibarət 50 komanda bir araya gəldi.

2021-ci ildə Google-ın İnnovasiyalar üzrə rəhbəri Dr. Frederik G. Pferdt, London Biznes Məktəbinin professoru və Təhsil İdarəetmə Məsləhətçisi Julian Birkinshaw və Strategiya, İnkişaf və Transformasiya üzrə ekspert Kaihan Krippendorff kimi innovasiyalar üzrə dünya ekspertlərinin cəlb olunduğu 1-ci İllik Qlobal İnnovasiyalar Sammitinin həyata keçirilməsində Paşa Holdinqə dəstək olduq.

Gələcək nəsil qarşısında böyük öhdəliyi olan şirkət kimi ölkəmizdəki uşaqlara müsbət təsir etmək üçün bütün səylərimizi səfərbər edirik. 2021-ci ildə Vətən Müharibəsində şəhid olan əsgər ailələrin uşaqlar arasında rəsm müsabiqəsi keçirdik. Biz həmçinin ASAN Könüllülər ilə “ASAN Məktub” adlı birgə layihəmiz vasitəsilə əməkdaşlıq edərək ehtiyacı olan ailələrin uşaqlarına məktəb ləvazimatları təqdim etdik.

2021-ci ildə biz, Qazax Müəllimlər Seminariyasının yenidən qurulması məqsədi ilə bu layihəyə dəstək verməyə başladıq. Seminariya 1918-ci ildə məşhur Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan bölməsinin davamçısı kimi yaradılmışdır. Onun məzunları arasında Azərbaycanın bir sıra görkəmli yazıçıları, təhsil xadimləri və ictimai xadimləri də var ki, onlar ölkənin sosial, mədəni, elmi və təhsilinin inkişafına öz töhfələrini vermişlər. Sovet dövründə seminariya 20-ci əsrin ortalarında bağlanana qədər pedaqoji texnikum kimi fəaliyyət göstərmişdir.



## SƏYLƏRİMİZ SOSİAL LAYİHƏLƏRLƏ MƏHDUDLAŞMIR

Ölkədə mühüm işəgötürən olaraq biz ahəngdar cəmiyyətin sağlam bir ətraf mühitdən asılı olduğunu anlayırıq. Ətraf mühitə təsirimizi minimuma endirmək üçün əsas inancımız və istəyimiz istiqamətində hərəkət edərək biz, Beynəlxalq Sahil Təmizləmə Günü çərçivəsində “Xəzər dənizini qoruyun!” adlı genişmiqyaslı ekoloji kampaniyaya qoşulduq. Layihə çərçivəsində 25 hektar ərazinin təmizlənməsi üçün bir sıra korporasiyalar və qeyri-hökumət təşkilatları bir araya gəldi. 1000-dən çox iştirakçının kollektiv fəaliyyəti nəticəsində bir gündə 6,5 ton tullantı təmizlədik.

## Cədvəl 22. Bakcell-in sosial rifah üçün ianələri, AZN ilə, 2019-2021

| | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| **Cəmiyyətə investisiyaların cəmi məbləği** | 133,748 | 6,362,377 | 7,593,508 |




## MİLLİ KSM MÜKAFATI 2021

**2021-ci ildə yerli cəmiyyətə davamlı töhfələrimizə görə Milli KSM Mükafatını aldıq.**

# BİZ PLANETİMİZİN GƏLƏCƏYİNİN QAYĞISINA QALIRIQ

İKT və iqlim dəyişikliyinin təsiri

Karbon tullantılarına təsirimiz

Ətraf mühitlə bağlı məsuliyyətimiz

# İKT və iqlim dəyişikliyinin təsiri

Informasiya Kommunikasiya Texnologiyaları ("İKT") sektoru texnologiya sahəsində böyük nailiyyətlər və innovasiyalar sayəsində son 70 il ərzində ən sürətli inkişafı keçmişdir. Müasir dünyada İKT-nın əhəmiyyətinin artması onun ətraf mühitə təsirini də əhəmiyyətli şəkildə artırmışdır. Sektorun qlobal istixana qazı tullantıları sektorundakı payı təxminən 1.8% - 2.8%-dir ki, bu da qlobal istilik istehlakının 4%-ni təşkil edir və onun karbon tullantılarına təsiri 2002-ci ildən 2012-ci ilə qədər 40%-dək artmışdır. İKT sektorunda karbon tullantıları izinin artması müasir rəqəmsal dünyada telekommunikasiya sahəsinin rolunun artması ilə əlaqədardır.

Hazırda emissiyaların artması tendensiyalarına baxmayaraq, İKT sektoru iqlim dəyişikliyi ilə mübarizə aparmaq üçün böyük potensiala malikdir. Qlobal Elektron Dayanıqlı İnkişaf Təşəbbüsünə (GSMA) uyğun olaraq İKT sektoru şirkətlərə enerjidən daha ağıllı istifadə etməkdə kömək etməklə, 2030-cu ilə qədər istixana qazı emissiyalarını 20%-dək azaltmaq imkanına malikdir. Rəqəmsallaşma enerjidən ağıllı istifadədə həqiqətən də mühüm rol oynayır. İstehsalçılar istehsal prosesini optimallaşdırmaq və enerjidən istifadəni azaltmaq üçün İKT-ni sənaye proseslərinə inteqrasiya edirlər. Kommersiya məqsədli binaların menecerləri enerji istehlakını azaltmaq üçün ağıllı texnologiyalardan və məlumat analitikasından istifadə edirlər. Ağıllı nəqliyyat sistemləri tıxacları azaltmaq, sərnişinlərin yolda vaxtına qənaət etmək, eyni zamanda yanacaq istehlakını və emissiyaları azaltmaq üçün yol hərəkəti məlumatlarından istifadə edir.

## Şəkil 12. İKT texnologiyalarından istifadənin sektorlara təsiri (GeSI & ITU)

| | | |
|---|---|---|
| **İKT vasitəsilə monitorinq** |  | **Bu necə işləyir ?** İKT texnologiyaları ətraf mühitin, ekosistemlərin, eləcə də digər məsələlərlə yanaşı meşələrin qırılması tendensiyalarına nəzarət üçün daha yaxşı tədqiqat sistemlərini dəstəkləyə bilər. |
| **Ərzaq təhlükəsizliyi çatışmazlığının aradan qaldırılması** |  | **Bu necə işləyir?** İKT sektoru M2M bağlantısı, təhlil üçün verilənlər bazası, həmçinin fermerlər və istehlakçılar arasında məlumat mübadiləsi vasitəsilə qlobal ərzaq təhlükəsizliyi səviyyələrinin artmasına töhfə verə bilər. |
| **Ağıllı İKT-lər və digər sektorlarda istixana qazı emissiyalarının azaldılması** |   | **Bu necə işləyir?** Ağıllı İKT texnologiyası ağıllı logistika, ağıllı binalar, ağıllı motor sistemləri və ağıllı şəbəkələr də daxil olmaqla sektorlar arasında istixana qazları emissiyalarının azalmasına dəstək verə bilər. |
| **İKT vasitəsilə gücləndirilmiş yaşam** |  | **Bu necə işləyir?** İKT texnologiyalarından Səhiyyə sahəsində istifadə tədqiqatçılar üçün daha çox məlumat təqdim edə və bununla da səhiyyə sahəsində əsaslı tibbi nailiyyətləri artıra, təhsil sahəsində isə ən son təhsil texnologiyaları vasitəsilə ətraf mühitlə bağlı məsələlər barədə məlumatlılığı artıra bilər. |

Biz, rəqəmsallaşdırma sayəsində İKT sektorunun iqlim dəyişikliyi ilə mübarizədə və ətraf mühitin idarə edilməsi sistemlərinin təkmilləşdirilməsində unikal imkanlara malik olduğunu təsdiqləyirik. Texnologiyalar sahəsində lider olaraq biz, bu imkanlardan Bakcell-dəki və cəmiyyətdəki gündəlik fəaliyyətimizdə maksimum faydalanmağa çalışırıq.

### Cədvəl 23. Bakcell-in İKT təsiri

| İKT vasitəsilə təsir sahəsi | Bizim fəaliyyətimiz |
|---|---|
| **Təhsil** | COVID-19 pandemiyası zamanı biz tələbələr və müəllimlər üçün yüksək keyfiyyətli distant təhsili təmin etmək üçün resurslarımızı səfərbər etdik. |
| **Səhiyyə** | Pandemiyanın qızğın çağında, eləcə də Vətən Müharibəsi dövründə xidmətlərimiz sayəsində tibb işçiləri üçün fasiləsiz rabitə təmin olunmuşdur. |
| **Ərzaq təhlükəsizliyi** | Təklif etdiyimiz İKT texnologiyalarından istifadə etməklə biz regionlardakı fermerlərə daha yaxşı rabitə və M2M şəbəkəsi vasitəsilə istehsalı artırmaq imkanı vermək istəyirik. |
| **Ətraf mühitin idarə edilməsi** | Məsuliyyətli bir Şirkət olaraq biz SƏTƏMM-lə bağlı ciddi yanaşmanı təmin edərək əməkdaşlarımızı və əməliyyatlarımızdan təsirlənən hər kəsi təkmilləşdirməyə davam edirik. Bundan əlavə, biz stansiyamızda hibrid günəş enerjisi sistemi quraraq enerji sərfiyyatı və bərpa olunan enerjidən istifadədə sıçrayış etdik, eyni zamanda korporativ ofisimizdə LED işıqlandırma kimi bir sıra təşəbbüslər sayəsində enerjidən istifadə göstəricilərimizi azaltdıq. |
| **İnklüzivlik** | Texnologiyalar üzrə lider olaraq biz rəqəmsal inklüzivliyi yeni səviyyəyə daşıyırıq. |

# Karbon tullantılarına təsirimiz

Ölkənin aparıcı şirkətlərindən biri olaraq biz, Bakcell-də fəaliyyətlərimizin ətraf mühitə təsirinə həmişə xüsusi diqqət yetirmişik. Enerji istehlakı telekommunikasiya sahəsində ciddi məsələdir və biz etiraf edirik ki, bu, dayanıqlı inkişaf gündəliyimizdə müstəsna əhəmiyyətli yer tutmalıdır. Bu məqsədlə biz enerji istehlakımızın və karbon izimizin səviyyəsinin kəskin şəkildə azaldılmasına yönəlmiş bir sıra təşəbbüslər həyata keçiririk.

Karbon izimizi azaltmaq və ətraf mühitin idarə edilməsini təkmilləşdirmək səylərimiz üzrə ən mühüm addımlardan biri bərpa olunan enerji mənbələrindən istifadə üçün pilot layihənin başlanması oldu. Biz bərpa olunan enerji ilə tam təmin olunmaq məqsədilə bir BTS-də hibrid günəş enerjisi sistemini quraşdırdıq, eyni zamanda günəş işığının az olduğu vaxtlarda əməliyyatların fasiləsizliyini təmin etmək üçün onları ehtiyat batareyalarla təchiz etdik. Bu təşəbbüs düzgün istiqamətdə atılmış mühüm addım oldu və biz bunu gələcəkdə daha da artırmağı planlaşdırırıq.

2019-cu ildə biz baza stansiyalarımızda soyuducu avadanlığın soyudulması nəticəsində yaranan həddən artıq enerji istehlakı məsələsinin unikal həllini tapdıq. Bu innovativ həll konsepsiyası istilik qəbuledicilərinin yaradılması üçün təbiətin gücündən istifadə etməkdən ibarətdir. Beləliklə, biz quraşdırılmış pəncərələr və ventilyatorlardan istifadə edərək enerji səmərəliliyinin artırılmasına nail olduq.

Karbon izimizi daha da azaltmaq öhdəliyimizi dəstəkləyərək 2020-ci ildə biz, ofislərimizdə işıqlandırma sistemini enerji istehlakında daha səmərəli olan, həmçinin daha uzun ömürlü və daha az dəyişilmə tələb edən LED lampaları ilə əvəz etdik ki, bu da daha az tullantıların yaranmasına kömək edir. Benzin və dizeldən asılılığımızı azaltmaq üçün şirkətimizin avtomobilləri üçün sıxılmış təbii qazdan istifadəyə keçdik.

Hazırda biz ISO 14005 Ətraf Mühitin İdarə edilməsi Sistemləri sertifikatına əsaslanan ətraf mühitin idarə edilməsi sisteminin yaradılması mərhələsindəyik. Bu prosesin 2021-ci ilin dördüncü rübündən gec olmayaraq tamamlanacağını planlaşdırırdıq; lakin COVİD-19 ilə əlaqədar yaranmış şəraitə görə bu proses təxirə salınmışdır. Biz növbəti hesabat dövrünədək bu təşəbbüsün həyata keçirilməsi üçün dayanmadan çalışırıq.

## Cədvəl 24. Bakcell üzrə enerji sərfiyyatı, 2019-2021

| | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| Ofisdə enerji istehlakı (kvt) | 583,128 | 567,482 | 390,000 |
| Texniki avadanlıq üçün istifadə olunan elektrik enerjisi (məs. LTE, BTS və s.) (kvt) | 29,060,765 | 30,958,763 | 28,213,609 |
| Dizel (ton) | 150.5 | 123.7 | 210 |
| Benzin (ton) | 213 | 200 | 165 |

## Cədvəl 25. Bakcell üzrə enerji intensivliyi əmsalı, 2019-2021

| | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| Enerji intensivliyi əmsalı (hər işçi üçün kvt) | 21,669.5 | 22,422.6 | 21,000 |
| Enerji intensivliyi əmsalı (hər petabayt üçün kvt) | 491,280.9 | 535,250.3 | 250,046.8 |

## Cədvəl 26. Bakcell üzrə İEYQ emissiyaları, 2019-2021

| | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| Sahə 1 İEYQ emissiyaları (tC02 e) | 1,142.55 | 1,021.38 | 701.68 |
| Sahə 2 İEYQ emissiyaları (tC02 e) | 491,280.9 | 535,250.3 | 487,788.7 |

# Ətraf mühitlə bağlı məsuliyyətimiz

Son illər ərzində ətraf mühitin idarə edilməsi yanaşmamız mühüm dəyişikliklərin şahidi oldu. Biz təkcə enerji istehlakı ilə bağlı təşəbbüslər vasitəsilə deyil, eləcə də ümumilikdə istehlak vərdişlərimizin yenidən qurulması ilə ətraf mühitə təsirimizi təkmilləşdirmək istiqamətində qətiyyətli tədbirlər həyata keçiririk.

### Şəkil 13. Bakcell-in tullantıların yaranması üzrə yanaşması




Bakcell ofislərimiz, anbarlarımız və baza stansiyalarımız da daxil olmaqla, gündəlik çoxsaylı müxtəlif əməliyyatlar həyata keçirən dinamik iş yeridir. Biz başa düşürük ki, hətta sənədin çapı və imzalanması kimi əhəmiyyətsiz görünən belə əməliyyatlar çox vaxt tullantıların əmələ gəlməsi ilə nəticələnir ki, bu da Şirkətimizin fəaliyyətindən kənar olan problemin artmasına səbəb olur. Biz problemlə bağlı deyil, onun həlli istiqamətində töhfəmizi verməyə çalışırıq. Biz COVID-19 pandemiyası ətrafında yaranmış vəziyyəti işimizin idarə olunması formasında uzunmüddətli dəyişiklik yaratmaq fürsəti kimi dəyərləndirdik və beləliklə, daxili əməliyyatlarımızın əksəriyyətini rəqəmsallaşdıraraq və əksər xidmətləri onlayn təklif edərək kağız tullantıların əmələ gəlməsinin qarşısını almağa nail olduq. Sərbəst işləmək imkanı həmçinin ofislərdə qida tullantılarının, plastik tullantıların və maskalar və əl təmizləyiciləri kimi tibbi tullantıların azalmasına kömək edir. Biz binalarımızda əmələ gələn tullantıların toplanması, ötürülməsi və təhlükəsiz şəkildə utilizasiyası üçün üçüncü tərəf olan şirkət ilə əməkdaşlıq edirik. Bundan əlavə, biz ətraf mühitin mühafizəsi təşkilatları və yerli bələdiyyə ilə əməkdaşlıq edərək binalarımızı təkrar emal edilə bilən tullantı qutuları ilə təchiz etmişik.

# ƏLAVƏ

Hesabat haqqında
GRİ İndeksi
SASB İndeksi
Fəaliyyət cədvəlləri

# Hesabat haqqında

Biz hər il maraqlı tərəflərin fəaliyyətlərimiz, təşəbbüslərimiz və Şirkətimizdəki mühüm dəyişikliklər barədə məlumatlı olması üçün dayanıqlı inkişaf haqqında hesabatlarımızı dərc edirik. Hesabatımıza mövzu ilə bağlı və fəaliyyət tendensiyalarını əks etdirmək üçün əvvəlki dövrlərə aid məlumatlar daxil edilmişdir. Bu hesabatın sonundakı Qlobal Hesabat Təşəbbüsü (GRI) İndeksi GRI Əsas standartlarına istinad edir.

Bu hesabatda Bakcell ilk dəfə olaraq Telekommunikasiya Xidməti sənayesi üçün xüsusi meyarlara uyğun olaraq Davamlılıq üzrə Mühasibat Uçotu Standartları Şurasının (SASB) Standartlarına uyğun açıqlamalar daxil etmişdir.

## Cədvəl 27. Hesabatın əhatə dairəsi və hüdudları

| | |
|---|---|
| **Hesabat dövrü:** | İllik |
| **Hesabatın əhatə dövrü:** | 1 yanvar 2021 – 31 dekabr 2021-ci il |
| **Hesabatın hüdudu** | Bakcell MMC |
| **Təşkilatın adı:** | Bakcell MMC |
| **Baş ofis:** | Bakı, Azərbaycan |
| **Hesabat sistemi:** | • Hesabat Qlobal Hesabat Təşəbbüsü (GRİ) Standartlarına (Əsas) uyğun olaraq yazılmışdır.<br>• Dayanıqlı İnkişaf üzrə Uçot Standartları Şurasının (SASB) standartları (Telekommunikasiya xidmətləri)<br>• BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri (DİM-lər) |
| **Dil:** | Azərbaycan, İngilis |
| **Üçüncü tərəflərin cəlb edilməsi:** | Seçilmiş göstəricilər üzrə kənar əminlik xidmətləri |

# Maraqlı tərəflərin cəlb edilməsi

Sənaye sahəsində lider olaraq, maraqlı tərəflərlə əlaqələr bizim üçün əsas prioritetdir belə ki, bu, bizimlə istənilən səviyyədə əlaqə yaradan hər bir şəxsə dəyər təqdim etdyimizi təmin edir. Biz müvafiq kommunikasiya kanalları vasitəsilə maraqlı tərəflərimizlə mühüm əlaqələr saxlamağa çalışırıq.

Maraqlı tərəflərlə əlaqələr siyasətimiz sayəsində biz maraqlı tərəflərimizi dəqiq müəyyən edə və hər bir maraqlı tərəflər qrupu üçün əlaqə strategiyasını təyin edə bilirik. Bu siyasət vasitəsilə biz maraqlı tərəflərimizi yanlış məlumalandırmamaq və ya səhv yönləndirməmək üçün şəffaf məlumat axınını təmin etməyə çalışırıq.

## Şəkil 14. Bizim maraqlı tərəflərimiz və kommunikasiya metodları

### MÜŞTƏRİLƏR

**Biz müştərilərimizlə birbaşa rəy, zəng mərkəzləri, SMM, pres-relizlər və dayanıqlı inkişaf hesabatlarımız vasitəsilə müntəzəm əlaqələr qururuq.**

### İŞÇİLƏR

Əməkdaşlarımız təkbətək görüşlər, fəaliyyət təhlilləri, təqdimatlar, kouçinq və daxili ünsiyyət formasında birbaşa əlaqələrdən müntəzəm şəkildə faydalanır.

### TƏCHİZATÇILAR

Biz təchizatçılarımızla birbaşa yazışmalar, görüşlər və təchizatçı qiymətləndirmələri vasitəsilə əlaqə saxlayırıq.

### YERLİ İCMALAR

Biz fəaliyyət göstərdiyimiz icmalarla pres relizlər, KSM layihələri, birbaşa rəy, görüşlər, vebinarlar, forumlar, konfranslar və dayanıqlı inkişaf hesabatları vasitəsilə müntəzəm qarşılıqlı əlaqədə oluruq.

### HÖKUMƏT VƏ DÖVLƏT QURUMLARI

Hökumət və dövlət qurumları ilə əlaqə saxlamaq üçün biz pres-relizlərdən, hesabatlardan, seminarlardan və görüşlərdən istifadə edirik.

### KİV

Media qurumları ilə ünsiyyəti təmin etmək üçün biz mətbuat konfransları keçiririk, saytımızda press-relizlər dərc edirik, həmçinin SMM və birbaşa görüşlər vasitəsilə əlaqə yaradırıq.

Əlaqə kanallarımız bizə birbaşa maraqlı tərəflərdən rəy almaq imkanı verir. Bundan əlavə, biz maraqlı tərəflərin cəlb edilməsi üçün fəaliyyət planını planlaşdırmaq və daha sonra tətbiq etmək üçün məlumatları təhlil edirik.

# Əhəmiyyətliliyin qiymətləndirilməsi

Biz qeyri-müəyyən və daim dəyişən bir dünyada yaşayırıq. Əhəmiyyətlilik bizə biznesimiz və maraqlı tərəflər üçün vacib olan dayanıqlı inkişaf məsələlərinə dair hesabat verməyə yardımçı olur. Məsələ aşağıdakı iki şərtə cavab verdikdə bizim üçün əhəmiyyətli hesab edilir. Birincisi, bu, biznesimizə artım, xərc və ya risk baxımından əhəmiyyətli dərəcədə təsir edir. İkincisi, bu, maraqlı tərəflərimiz üçün mühüm əhəmiyyətə malikdir və onlar bizdən bu məsələ ilə bağlı tədbir görməmizi gözləyirlər. Məsələnin əhəmiyyətli olub-olmadığını müəyyən edərkən biz dəyər zənciri üzrə təsirlərimizi nəzərə alırıq.

